

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

17 aprel 2025-ci il, cümə axşamı

№ 063 (6891)

Qiyməti 60 qəpik


# Gürcüstandan Azərbaycana ilk və vacib səfər...



Bax səh. 2

## Mixeil Kavelaşvili: Heç bir üçüncü ölkə və ya təşkilatın xalqlarımız üçün nəyin yaxşı olduğunu bizdən yaxşı bilməsi mümkün deyil

## İlham Əliyev: Əgər biz bu gün Avropanın enerji təhlükəsizliyi haqqında danışırıqsa, bunu Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil

## Korrupsiyaya qarşı mübarizədə yenilik...

Ölkəmizdə korrupsiyaya qarşı mübarizə müasir çağırışlara uyğun aparılan dərin məzmunlu islahatlar kursunun tərkib hissəsi qismində çıxış edir. Belə ki, bu istiqamətdə görülən tədbirlər, alınan qərarlar ardıcıl və sistemli səciyyə daşıyır. Prezident İlham Əliyevin "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanunun tətbiqi haqqında fərman imzalaması bu istiqamətdə atılan növbəti qətiyyətli addımdır. Bəhs olunan sənəd ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən, qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradan, iqtisadi və sosial inkişafı ləngidən, əlverişli biznes mühitinin formalaşmasına maneçilik törədən korrupsiyanın ölkəmizdə əhatə dairəsinin daha da məhdudlaşdırılmasını hədəfləyir.

Bəhs olunan sənədə istinadən deyə bilərik ki, dövlətimizin başçısı respublikamızda korrupsiyanın kökünün kəsilməsində israrlıdır. Hədəflənən nəticənin əldə olunması üçün korrupsiyaya qarşı mübarizənin davamlı şəkildə aparılması, həmçinin effektiv mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycan dövlətinin ölkədə neqativ hallara qarşı mübarizədə nümayiş etdirdiyi qətiyyət və qazanılan təcrübə təqdirəlayiqdir. Son illər respublikamızda korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə mexanizmləri ardıcıl olaraq təkmilləşdirilib, qanunvericilik bazası daha da genişləndirilib. Respublikamızda neqativ hallara qarşı mübarizənin səmərəliliyini artırmaq məqsədilə müxtəlif dövlət proqramları, milli strategiyalar qəbul olunub və uğurla reallaşdırılıb. Respublikamızda Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi kimi ixtisaslaşmış qurumlar fəaliyyət göstərirlər. Bu qurumlar korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasətinin formalaşmasında, cinayət təqibinin və preventiv tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar.

Dövlətin, şəxsən Prezident İlham Əliyevin göstərdiyi qətiyyətli siyasi iradəyə uyğun olaraq Azərbaycanda şəffaf münasibətlər sistemi formalaşıb. Dövlət orqanlarında göstərilən xidmətlərin elektronlaşdırılması, eləcə də hüquq-mühafizə orqanları və məhkəmələr tərəfindən aparılan icraatların paralel olaraq elektron formada təşkili vətəndaşların dövlət qurumlarına əlçatanlıq səviyyəsinin artmasına, həmin qurumların...

Bax səh. 3

## Sülh uzaqda deyil...



Bax səh. 3

## Növbəti ilin büdcə hazırlığına başlanılıb

Bax səh. 5

## İnkişaf etmiş dövlətlər qrupunda...

Bax səh. 5

## AŞPA-nın səhvi...

Bax səh. 4

## Eçmiədzindən Vatikana "şikayət məktubu"...

Bax səh. 6

## İrəvanın "təlim" görüntüsü...

Bax səh. 6

## "Dekolonizasiya: Sakit inqilab" - yekun sənəd və petisiya...

Azərbaycan neokolonializmə qarşı mübarizə aparan xalqlara dəstəyini davam etdirir. Aprelin 15-də BMT-nin Nyu-Yorkdakı baş qərargahında Bakı Təşəbbüs Qrupu (BTQ) tərəfindən "Dekolonizasiya: Sakit inqilab" adlı beynəlxalq konfransın keçirilməsi də bunun göstəricisidir. Qeyd edək ki, bu beynəlxalq konfrans ilk dəfə BMT-nin tədbiri olaraq qeydiyyata düşüb. Tədbir Afrikaəsilli xalqların Daimi Forumunun 4-cü sessiyası çərçivəsində təşkil olunub. Tədbirdə açılış nitqi ilə çıxış edən BTQ-nin icraçı direktoru Abbas Abbasov milli və müstəqillik hərəkatlarına dəstəklərinin davam edəcəyini bildirib. O, Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi dövrü və daha sonra Bakı Təşəbbüs Qrupunun fəaliyyəti ilə dekolonizasiya prosesinin ikinci dalğasının artıq başlandığını və müsbət nəticələrinin olacağını vurğulayıb.

Tədbir çərçivəsində "İctimai yaddaş, silinmə və Afrikaəsilli yerli xalqların müqaviməti" və "Müstəmləkə hökmranlığı altında olan ərazilərdə geosiyasi dekolonizasiyanın dinamikası" adlı sessiyalar təşkil olunub. Fransa və Niderlandın müstəmləkəçiliyi altında olan Qvadelupa, Martinika, Kanaki (Yeni Kaledoniya), Sint- Marten, Reunyon, Bonayre, Aruba, Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianasından ekspertlər, siyasətçilər və fəallar çıxış edərək müstəmləkə siyasətinin yaratdığı sosial, iqtisadi siyasi fəsadlardan, mübarizələrindən, dünya ictimaiyyətinin müstəmləkəçiliyə verdiyi reaksiyadan, müstəmləkə xalqlarının səsinin beynəlxalq müstəviyə çıxarılmasının vacibliyindən və bu istiqamətdə Bakı Təşəbbüs Qrupunun gördüyü işlərdən danışıblar.

A.Abbasov BTQ-nin saytında "Müstəmləkəçilik zülmünün tanınması və təzminatların ödənilməsi tələbi" adlı petisiyanın başladıldığını elan edib. O, petisiyada müstəmləkəçilik zülmünə məruz qalmış xalqlara vurulmuş maddi və mənəvi zərərlərin beynəlxalq səviyyədə tanınması və təzminat ödənilməsinin tələb edildiyini bildirib.

Konfrans iştirakçıları tədbirin sonunda yekun sənəd qəbul ediblər. Sənəddə kolonializmin dünya miqyasında bərpa edilməsi mümkün olmayan dərin yaralar vurduğu qeyd olunub, kolonial güclərin öz tarixi cinayətlərinə görə davamlı olaraq məsuliyyətə cəlb olunmaqdan imtina etmələri qətiyyətlə pislənilib. Bəyanatda, həmçinin Fransa və Niderland kimi dövlətlərin bu gün də öz kolonial siyasətlərindən əl çəkmədiyi...

Bax səh. 4

## "Patriot" Ukraynanı xilas edəcək?



Bax səh. 7

## Harvard Universitetinin taleyi necə olacaq?



Bax səh. 7

# O, Azərbaycanın dostu idi...

## Prezidentdən Riçard Armitacın ailəsinə

Görkəmli dövlət xadimi, diplomat və ictimai-siyasi xadim, Azərbaycanın böyük dostu Riçard Armitacın vəfatı xəbəri bizi olduqca kədərləndirdi.

Riçard Armitac uzun illərdən bəri beynəlxalq siyasət və diplomatiya sahəsində davamlı və səmərəli fəaliyyəti, zəngin təcrübəsi və yüksək peşəkarlığı ilə həm ABŞ-da, həm də ondan kənarda böyük nüfuz qazanmışdır. O, dünyada sülhün, təhlükəsizliyin və sabitliyin bərqərar olması, münaqişələrin və gərginlik ocaqlarının aradan qaldırılması, qlobal təhdidlərin qarşısının alınması işinə mühüm töhfələr vermişdir.

Riçard Armitac Azərbaycanın dostu idi. Ona Azərbaycanda hər zaman hörmət və rəğbətlə yanaşmışlar. Azərbaycan Respublikası ilə Birləşmiş Ştatlar arasında münasibətlərin inkişafında, dostluq əlaqələrimizin möhkəmlənməsində Riçard Armitacın xidmətlərini xüsusi qeyd etmək istərdim. Onunla görüşlərimi ən xoş təəssüratlarla xatırlayıram.

Riçard Armitacın əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə və ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 aprel 2025-ci il***

# Gürcüstandan Azərbaycana ilk və vacib səfər...



## İlham Əliyev: Əgər biz bu gün Avropanın enerji təhlükəsizliyi haqqında danışırıqsa, bunu Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil

## Mixeil Kavelaşvili: Heç bir üçüncü ölkə və ya təşkilatın xalqlarımız üçün nəyin yaxşı olduğunu bizdən yaxşı bilməsi mümkün deyil

**Aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Prezidenti Mixeil Kavelaşvilinin təkbətək görüşü keçirilib.**



### Siyasi dialoq fəaldır



Sonra Azərbaycan və Gürcüstan Prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edi.

Gürcüstan Prezidentini salamlayan dövlətimizin başçısı onu prezident vəzifəsinə seçilməsi münasibəti ilə təbrik edib. Prezident İlham Əliyev gürcü həmkarını bu vəzifəyə seçiləndən sonra ilk səfərini məhz ölkəmizə etdiyindən məmnunluğunu ifadə edib: "Mən çox şadam ki, prezident vəzifəsinə seçiləndən sonra Siz ilk rəsmi səfəri Azərbaycana edirsiniz. Biz bunu Azərbaycanda çox yüksək qiymətləndiririk. Bu, bir daha Gürcüstan-Azərbaycan əlaqələrinin mahiyyətini, xalqlarımızın dostluğunu, qardaşlığını göstərir".

Əsrlər boyu bizim xalqlarımızın sülh, mehribanlıq, qardaşlıq şəraitində yaşadıqlarını söyləyən dövlətimizin başçısı bu gün də eyni dəyərləri yaşatdığımızı qeyd edib. Dövlətlərimiz arasındakı münasibətlərdən söz açan Prezident İlham Əliyev bu münasibətlərin yüksək səviyyədə olduğunu bəyan edib: "Dövlətlərarası münasibətlər də yüksək səviyyədədir. Gürcüstan və Azərbaycan birgə bir çox önəmli layihələri icra ediblər və bu layihələr həm ölkələrimiz üçün, xalqlarımız üçün, həm də daha geniş coğrafiya üçün böyük önəm daşıyır. Təbii olaraq siyasi əlaqələr inkişaf edir. Yüksəksəviyyəli təmaslar müntəzəm xarakter daşıyır, siyasi dialoq fəaldır. Yəni, iki dost, qardaş ölkə, sözün əsl mənasında, bir-birinə çox bağlıdır və beynəlxalq təşkilatlarda da daim bir-birini dəstəkləyir. Bizi birləşdirən bir çox sərmayə layihələri qeyd etdiyim kimi, böyük coğrafiya üçün önəmlidir. Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi neft-qaz layihələri, neft-qaz kəmərləri, nəqliyyat, kommunikasiya layihələri, sözün əsl mənasında, böyük əhəmiyyət daşıyan layihələrdir və nəinki Cənubi Qafqazın, Avrasiya regionunun nəqliyyat və enerji xəritəsini yenidən tərtib edən layihələrdir". Azərbaycanın və Gürcüstanın nəinki bölgədə, regiondan kənar mövqeyini yüksək qiymətləndirən dövlətimizin başçısı Avropanın enerji təchizatının bu iki ölrədən kənar təsəvvür olunmadığını vurğulayıb: "Əgər biz bu gün Avropanın enerji təhlükəsizliyi haqqında danışırıqsa, bunu Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil. Hazırda Gürcüstan daxil olmaqla Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bu ixrac Gürcüstan vasitəsilə həyata keçirilir. Nəqliyyat-kommunikasiya sahəsində əldə olunmuş nailiyyətlər, yeni inşa edilmiş dəmir yolları, limanlar həm Azərbaycanda, həm də Gürcüstanda böyük sinergiya yaratmış və əslində, Orta Dəhlizin ayrılmaz hissəsinə çevrilmişdir. Əgər bu gün biz Cənubi Qafqazda Orta Dəhliz layihəsindən danışırıqsa, bu, Azərbaycandan və Gürcüstandan keçən dəhlizdir. İldən-ilə ölkələrimizin ərazisindən keçən yüklərin həcmi artır və bu yüklərin həcminin artırılması üçün əlavə addımlar atılır".

Bölgədə sabitliyin təmin edilməsində söz açan Prezident İlham Əliyev bəyan edib ki, bu hər iki ölkənin marağında olan məsələdir: "Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərqərar edilməsi də bizim birgə maraqlarımızda olan məsələdir və burada həm Gürcüstan, həm Azərbaycan öz töhfəsini verir. Əfsuslar olsun ki, uzun illər ərzində Cənubi Qafqaz münaqişə, müharibə arenasına çevrilmişdir. Ümid edirəm ki, bundan sonra Cənubi Qafqazın qara səhifələri bağlanacaq və tarixdə qalacaq".

"Gürcüstan-Azərbaycan əlaqələri haqqında çox danışmaq olar. Sadəcə, onu bildirmək istəyirəm ki, bundan sonra da bizim əlaqələrimiz yüksələn xətlə inkişaf edəcək.

Mən bir daha cənab Prezidentə təşəkkürümü bildirirəm. Əminəm ki, Azərbaycan xalqı da onun qərarını yüksək qiymətləndirəcək. Çünki adətən seçkilərdən sonra birinci səfər rəmzi xarakter daşıyır və bu səfər Azərbaycana edilib. Eyni zamanda, Gürcüstanın Baş naziri də seçkilərdən sonra ilk rəsmi səfərini Azərbaycana edib. Yəni, bu, artıq gözəl ənənəyə çevrilib"-deyən dövlətimizin başçısı Gürcüstan Prezidenti Mixeil Kavelaşviliyə təşəkkürlərini bildirib və ona fəaliyyətində yeni uğurlar arzulayıb.

Sonra Gürcüstanın Prezidenti bəyanatla çıxış edib. Prezident Mixeil Kavelaşvili səmimi qəbula və qonaqpərvərliyə görə Prezident İlham Əliyevə xüsusi minnətdarlığını bildirib: "Bu, mənim Gürcüstan Prezidenti kimi ilk xarici səfərimdir. Bu səfərdə Gürcüstanla Azərbaycan arasında strateji və xüsusi mehriban qonşuluq münasibətləri vurğulanır. Bu vəzifəyə seçildikdən sonra tezliklə Azərbaycana səfər etmək mənim üçün vacib idi".

Cənab İlham Əliyevlə görüşmək imkanı olduğundan məmnun qaldığını ifadə edən Gürcüstan Prezidenti görüş zamanı müzakirə olunan məsələlərdən danışıb: "Biz Gürcüstanla Azərbaycan arasında çoxşaxəli nümunəvi əlaqələr, Cənubi Qafqaz regionunun çağırışları, dünyada gedən cari proseslər barədə düşüncələrimizi və fikirlərimizi bölüşdük.

Əsrlər boyu xalqlarımız arasında bənzərsiz dostluq inkişaf edərək əməkdaşlığın gələcəkdə daha da möhkəmlənməsi üçün etibarlı zəmin yaradıb. Milli özünəməxsusluğu qoruyub saxlamaq, adət-ənənələrə, mədəniyyətə, tariximizə hörmət xalqlarımızın xüsusi diqqət yetirdiyi təməl prinsiplərdir".

Ölkələrimiz arasında dostluğun nümunəvi olduğunu söyləyən Mixeil Kavelaşvili bildirib ki, dostluğumuz qarşılıqlı hörmətə və bir-birimizin milli maraqlarının nəzərə alınmasına əsaslanır: "Biz münasibətlərdə güvənməyin nə qədər vacib olduğunu başa düşürük və sözümüzün dəyərini bilirik. Bizi xilas edən və bu günə çatdıran bir sıra yazılmamış qanunlarımız, dəyərlərimiz var. Ona görə də Gürcüstan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığı bu qədər xüsusi və nümunəvidir".

Çağırışlar və təhlükələrlə dolu bugünkü qloballaşma dövrünün bir çox fundamental dəyərləri təhdid etdiyini vurğulayan Gürcüstan Prezidenti qeyd edib ki,biz bu prinsipləri qorumaq üçün xüsusi diqqət və səy göstərməliyik: "Gürcü və Azərbaycan xalqları millətlərimiz üçün həyati əhəmiyyət kəsb edən dəyərlərin qorunması uğrunda mübarizədə bir yerdədir və bundan sonra da birlikdə olacaqlar.



Mən qəti əminəm ki, zamanın sınağından çıxmış yüksəksəviyyəli strateji və mehriban qonşuluq münasibətləri daha da möhkəmlənəcək, Gürcüstanın və Azərbaycanın milli maraqlarının həyata keçirilməsində yeni müstəviyə keçəcək. Regionun və dünyanın qarşısında duran vəzifələrin səmərəli həlli üçün ölkələrimiz arasında bütün sahələrdə sıx əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir".

### Dostluğumuz qarşılıqlı hörmətə və bir-birimizin milli maraqlarının nəzərə alınmasına əsaslanır

Azərbaycan və Gürcüstanın qarşılıqlı faydalı layihələr həyata keçirdiyini deyən Prezident Mixeil Kavelaşvili bu layihələrin bütün dünya üçün regionumuzu daha da cəlbedici etdiyini vurğulayıb: "Cənubi Qafqaz regionunun daha da rəqabətədavamlı, etibarlı və perspektivli olması üçün davamlı sülhün və sabitliyin təmin edilməsi vacibdir.

**Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ilə nahar əsnasında geniş tərkibdə görüşü olub**



Vurğulamaq istərdim ki, Gürcüstanla Azərbaycan bir-birinin suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir. Buna görə cənab Prezidentə bir daha təşəkkür etmək istərdim. Gürcüstan həmişə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin güclü tərəfdarı olub".

Azərbaycan və Ermənistan arasında sülh sazişinin bütün bəndləri üzrə danışıqlar prosesinin bu yaxınlarda başa çatmasını alqışladığını deyən Gürcüstan Prezidenti bunu doğru addım kimi qiymətləndirib: "Ümid edirik ki, yaxın gələcəkdə tarixi saziş imzalanacaq və regionda uzunmüddətli, davamlı sülhün təmin edilməsi üçün həlledici təkan olacaq.

Gürcüstanın bəyan etdiyi sülh siyasətini və regionda sülhün təmin olunmasına töhfə verməyə hazır olduğunu bir daha vurğulamaq istərdim. Sizi əmin etmək istərdim ki, Gürcüstan həmişə Cənubi Qafqazda dialoqun, diplomatiyanın, dinc yanaşı yaşamağın tərəfdarı olub və bu kurs gələcəkdə də davam edəcək.

Ölkələrimiz arasında mövcud olan xüsusi, çoxəsrlik dostluq və ümumi düşünülmüş siyasət bizə regionumuzun rolunu düzgün müəyyənləşdirməyə imkan verib. Əminəm, bizim ümumi gələcəyimizə uğurlu, iqtisadi cəhətdən güclü və firavan Cənubi Qafqaz regionu daxildir ki, burada xalqlarımız öz adət və ənənələri ilə birgə yaşaya biləcəklər, dırnaqarası liberal dəyərlərlə yox.

Təəssüf ki, son vaxtlar ölkələrimiz dəfələrlə ikili standartların və xarici qüvvələrin daxili işlərə müdaxiləsinin obyektinə çevrilib. Çoxsaylı səylərə baxmayaraq, biz bu təhlükələri qətiyyətlə aradan qaldırırıq, regionun təhlükəsizliyini və sabitliyini təmin edirik.

Heç bir üçüncü ölkə və ya təşkilatın xalqlarımız üçün nəyin yaxşı olduğunu bizdən yaxşı bilməsi mümkün deyil. Şadam ki, Azərbaycan ilə Gürcüstan arasında ümumi maraqların müdafiəsi sahəsində əməkdaşlıq intensivləşib və cənab Prezident, buna görə Sizə bir daha təşəkkür edirəm.

Düzgün və ardıcıl siyasətlə biz regionun potensialından tam istifadə etməli, dünyanın geosiyasi xəritəsində güclü, etibarlı, birləşdirici körpü funksiyasını yerinə yetirməliyik. Əminəm ki, ölkələrimizin və xalqlarımızın mənafeyi naminə bir-birimizin maraqlarını nəzərə alaraq əlaqələrimiz daha da sürətlə inkişaf edəcək".

Azərbaycan Prezidentinə səmimi qonaqpərvərliyinə görə bir daha minnətdarlığını bildirən Gürcüstan Prezidenti yaxın gələcəkdə dövlətimizin başçısını öz ölkəsində görəcəyinə əmin olduğunu bildirib.

# Korrupsiyaya qarşı mübarizədə yenilik...

## Prezident fərman verdi

**Ölkəmizdə korrupsiyaya qarşı mübarizə müasir çağırışlara uyğun aparılan dərinməzmunlu islahatlar kursunun tərkib hissəsi qismində çıxış edir. Belə ki, bu istiqamətdə görülən tədbirlər, alınan qərarlar ardıcıl və sistemli səciyyə daşıyır. Prezident İlham Əliyevin "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanunun tətbiqi haqqında fərman imzalaması bu istiqamətdə atılan növbəti qətiyyətli addımdır. Bəhs olunan sənəd ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən, qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradan, iqtisadi və sosial inkişafı ləngidən, əlverişli biznes mühitinin formalaşmasına maneçilik törədən korrupsiyanın ölkəmizdə əhatə dairəsinin daha da məhdudlaşdırılmasını hədəfləyir.**



### Dövlətin qətiyyətli siyasi iradəsi

Bəhs olunan sənədə istinadən deyə bilərik ki, dövlətimizin başçısı respublikamızda korrupsiyanın kökünün kəsilməsində israrlıdır. Hədəflənən nəticənin əldə olunması üçün korrupsiyaya qarşı mübarizənin davamlı şəkildə aparılması, həmçinin effektiv mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycan dövlətinin ölkədə neqativ hallara qarşı mübarizədə nümayiş etdirdiyi qətiyyət və qazanılan təcrübə təqdirəlayiqdir. Son illər respublikamızda korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə mexanizmləri ardıcıl olaraq təkmilləşdirilib, qanunvericilik bazası daha da genişləndirilib. Respublikamızda neqativ hallara qarşı mübarizənin səmərəliliyini artırmaq məqsədilə müxtəlif dövlət proqramları, milli strategiyalar qəbul olunub və uğurla reallaşdırılıb. Respublikamızda Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi kimi ixtisaslaşmış qurumlar fəaliyyət göstərirlər. Bu qurumlar korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasətinin formalaşmasına, cinayət təqibinin və preventiv tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar.

Dövlətin, şəxsən Prezident İlham Əliyevin göstərdiyi qətiyyətli siyasi iradəyə uyğun olaraq Azərbaycanda şəffaf münasibətlər sistemi formalaşıb. Dövlət orqanlarında göstərilən xidmətlərin elektronlaşdırılması, eləcə də hüquq-mühafizə orqanları və məhkəmələr tərəfindən aparılan icraatların paralel olaraq elektron formada təşkili vətəndaşların dövlət qurumlarına əlçatanlıq səviyyəsinin artmasına, həmin qurumların fəaliyyətində şəffaflıq səviyyəsinin yüksəlməsinə səbəb olub.

Ölkənin mövcud inkişaf səviyyəsi bütün sahələrdə olduğu kimi, korrupsiyaya qarşı mübarizədə də yeni baxış tələb edir. Prezident İlham Əliyevin 4 aprel 2022-ci il tarixində imzaladığı müvafiq sərəncamla "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" təsdiqlənib. Bu sənədin təsdiqlənməsi Azərbaycanın özünün inkişafının indiki mərhələsində korrupsiyaya qarşı mübarizəyə yeni baxışını və niyyətini ifadə edir.

Prezident İlham Əliyevin bu günlərdə imzaladığı yeni fərman ondan xəbər verir ki, dövlət korrupsiyaya qarşı mübarizənin səmərəliliyini daha da artırmaq niyyətindədir. Fərmanla korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsə və ya onun yaxın qohumlarına hədə-qorxu gəlmək, onları təzyiqlərə məruz qoymaq, maddi və ya mənəvi ziyan vurmaq, təhqir və təhdid etmək, şərəf və ya ləyaqətini alçaltmaq qadağan edilib. Belə ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən işçiyə belə məlumat verdiyinə görə birbaşa və ya dolayı yolla qisas almaq məqsədilə tənbeh tətbiq etmə, əmək müqaviləsinə xitam vermə, vəzifədən azad etmə, başqa işə keçirmə, əməkhaqqından qanunsuz tutulmalar aparma, vəzifədə irəli çəkilməyə və ya həvəsləndirməyə aktiv və ya passiv formada maneçilik törətmə, mənfi cəhətdən xarakterizə etmə və digər bu cür tədbirlər tətbiq edilə bilməz.

### Korrupsiyaya qarşı mübarizədə yeni mərhələ

Dəyişikliklərə əsasən, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs ona qisas almaq məqsədilə hər hansı tədbirlərin tətbiqinə dair dəlillər irəli sürdükdə həmin dəlillərin təkzib edilməsi işəgötürənin üzərinə düşəcək. Həmçinin orqanın rəhbəri müvafiq qurum daxilində bu tələblərə riayət olunmasını təmin etməlidir, həmin maddənin tələblərinin pozulması məsuliyyətə səbəb olacaq.

Eyni zamanda, qanunla qadağan edilən addımlara məruz qaldığını iddia edən şəxs pozulmuş hüquqlarının bərpası üçün aidiyyəti üzrə yuxarı vəzifəli şəxsə və ya məhkəməyə müraciət edə bilər. Müvafiq qanuna əlavə edilən yeni maddəyə əsasən isə orqanların rəhbərləri korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların idarədaxili qaydada verilməsi mexanizmini müəyyən etməlidirlər. Bundan başqa, orqan rəhbərləri işçilərin və iş görən, yaxud xidmət göstərən digər şəxslərin korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatları qəbul etmək səlahiyyətinə malik subyektlər, bu subyektlərə və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlara müraciət etmə qaydaları, müraciətə baxılmanın nəticəsi və korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin hüquqları ilə tanış olmalarını təşkil etməlidirlər.

### Cəmiyyətin aktivliyi artacaq

Korrupsiya elə bir ictimai bəladır ki, ona qarşı mübarizədə həm də cəmiyyətin fəallığı və geniş dəstəyi zəruri amil qismində çıxış edir. Nəzərdə tutulan dəyişikliklərin məzmunundan da göründüyü kimi, ölkəmizdə korrupsiyaya qarşı mübarizədə ictimai iştirakçılığın artırılması hədəflənib. Korrupsiyanın mövcudluğu vətəndaşların qanuni mənafelərinin qorunmasına ciddi xələl gətirir. Deyə bilərik ki, mənfi təzahürləri hər kəs öz həyatında hiss edir. Belə isə nə üçün cəmiyyət korrupsiyaya qarşı mübarizədən kənarda qalmalıdır?

Son vaxtlar müxtəlif dövlət qurumları yanında ictimai şuraların yaradılması respublikamızda idarəçilikdə cəmiyyətin təmsilçiliyinin təmin olunması istiqamətində atılan mühüm addımdır. Respublikamızda 2014-cü il iyunun 1-dən qüvvəyə minən "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun icrasında ilk vaxtlarda müəyyən problemlər yaşanırdı. Hazırda isə ictimai şuraların yaradıldığı və uğurla fəaliyyət göstərdiyi mərkəzi icra hakimiyyəti orqanlarının sayı əhəmiyyətli dərəcədə artıb. Həmçinin yerli icra strukturları yanında da ictimai şuralar təşkil olunur. Prezident İlham Əliyevin imzaladığı fərmanla nəzərdə tutulan dəyişikliklər bu istiqamətdə yeni mərhələyə keçidi təmin edəcək. Bundan sonra bu və ya digər qurumda çalışan hər kəsin korrupsiyaya qarşı mübarizənin fəal iştirakçısına çevrilməsinə imkanlar açılır.

*Mübariz ABDULLAYEV*

# Sülh uzaqda deyil...

## İmzalanma üçün məkan müzakirələri başlayır

**Azərbaycan Xarici İşlər Nazirliyinin bu il martın 13-də Ermənistanla sülh sazişi üzrə danışıqların bitməsi ilə bağlı bəyanatı 3 ilə yaxın bir prosesin uğurla nəticələnməsi istiqamətindəki son addım sayıla bilər. Artıq iki ölkə arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni tam həcmdə razılaşdırılıb və növbəti, son mərhələnin ardından illərdir ki, gözlənilən sülhün imzalanması reallaşacaq. Təbii ki, bu, bəlkə də son 50 ilin ən mühüm hadisələrindən biri kimi yadda qalacaq - çünki Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi məhz son onilliklərin ilk və yeganə analoji hadisəsidir.**

### Sülh üçün...

Qeyd edək ki, Azərbaycan hər zaman sülhpərvər mövqe tutub - hətta işğala məruz qaldığı 30 il ərzində belə münaqişənin sülh yolu ilə tənzimlənməsinin tərəfdarı kimi çıxış edib. Post müharibə dövründə də qalib ölkə olduğu halda ilk olaraq sülh təşəbbüsləri məhz Azərbaycan tərəfindən irəli sürülüb. Ermənistan tərəfindən isə ara-sıra revanşist açıqlamalar hələ də səslənsə də, dövlətin rəsmi mövqeyi sülh formatında görünür. Belə ki, Ermənistanın baş naziri Nikol Paşinyan ölkə parlamentində bildirib ki, Azərbaycan və Ermənistan arasında müharibə olmayacaq - bunun üçün heç bir əsas yoxdur, sülh olacaq. O əmindir ki, həm Ermənistan, həm də Azərbaycan xalqı sülh içində yaşamağa layiqdir. Baş nazir həmçinin sülh gündəliyini təhlükə altına qoya biləcək bəyanatlar verməməyə çağırıb.

Beləliklə, artıq Ermənistan da anlayır ki, sülhün imzalanması istər bölgə üçün, istərsə də yeni geostrateji məqamda qlobal məkan üçün olduqca vacib şərtə çevrilib. O baxımdan ki, son aylarda beynəlxalq aləmdə yaşanan proseslər bəzi amilləri ön plana çıxarıb - yeni iqtisadi planlaşdırmalar, strateji iqtisadi layihələr, hətta yol xəritəsinə çevriləcək addımlar üçün Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmini ilkin şərtə çevrilir.

### Konstitusiyada lazımi dəyişikliklər sülh sənədinin imzalanması üçün heç bir maneə qoymur

Sülh üçün isə bəlkə də, bir addım qalıb - hər iki dövlətin rəsmiləri öz çıxışlarında bu proses üzrə mühüm bir yol qət edildiyini önə çəkirlər. Məsələn, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan deyib ki, biz sülh və sabitliyə heç vaxt bu qədər yaxın olmamışıq. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov isə IV Antalya Diplomatiya Forumu çərçivəsində keçirilən panel iclasında bildirib ki, Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması ilə bağlı başqa maneələr qarşılaşacağımızı düşünmürük. Azərbaycanla Ermənistan sülh baxımından çox uğurlu bir dövrü geridə qoyub.

Beləliklə, hər iki tərəf prosesin uğurla son mərhələyə qədəm qoyacağına inamını ifadə edir. Xatırladaq ki, Azərbaycan dövləti sülh sənədinin imzalanması üçün Ermənistan konstitusiyasına müvafiq dəyişikliklərin edilməsinin və ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı aktiv addımların atılmasının zəruriliyini bildirmişdi. Antalya Forumundakı çıxışında nazir Ceyhun Bayramov qeyd edib ki, Ermənistan konstitusiyasında lazımi dəyişikliklər edilərsə, bu dəyişikliklər torpaqlara bağlı haqq iddiaları məsələsinin həllinə gətirib çıxaracaq. Beləliklə, bu prosesin də qısa zamanda həlli sülh sənədinin imzalanması üçün heç bir maneə qoymur.

### Ən mühüm razılaşlamalar sərhəddə əldə edilib

Maraqlı detallardan biri isə sülh müqaviləsinin harada imzalanması ilə bağlı açılan müzakirələrdir. Ermənistan tərəfi Azərbaycanla həm sərhəddə, həm də üçüncü ölkələrdən hansısa birində sülh sazişi imzalamaq imkanlarını mümkün hesab edir. Türkiyənin NTV telekanalına müsahibəsində Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bildirib ki, indi sazişin imzalanma yerini, vaxtını və dəqiq tarixini müəyyən etmək üçün dərhal məsləhətləşmələrə başlaya bilərik: "Bu, Ermənistan-Azərbaycan sərhədi də ola bilər, həm İrəvan, həm də Bakı üçün məqbul olan istənilən üçüncü ölkə də. Bütün bunlar müzakirə mövzusuna çevrilə bilər".

Vurğulandığı kimi, sülh sənədini imzalamaq üçün qeyd edilən iki şərti yerinə yetirdikdən sonra məkanın seçilməsi məsələsi mühüm məsələlərdən biri kimi önə çıxa bilər. Mirzoyan sənədin sərhəddə imzalanması məsələsinə toxunur ki, praktik cəhətdən bu mümkündür - qeyd edək ki, sülh prosesinin son bir il yarımda mühüm yol qət etməsi ikitərəfli təmasların vasitəçisiz formatda qurulması ilə birbaşa bağlıdır. Xatırlayaq ki, proses çərçivəsində ikitərəfli razılaşmaların mühüm əksəriyyəti məhz bu dövrdə əldə olunub. Beləliklə, sülh sənədinin də ikitərəfli formatda imzalanması mümkündür.



### Üçüncü ölkə: Ankara, Astana, Tbilisi...

O ki qaldı, üçüncü ölkəyə, burada fərqli versiyalar irəli sürülə bilər. Məsələn, post müharibə dövründə Azərbaycan ilə Ermənistan arasındakı danışıqlar iki proses üzrə aparılırdı - bunlardan biri Aİ-nin vasitəçiliyi ilə aparılan "Brüssel formatı", digəri isə Kremlin iştirakı ilə gedən "Soçi prosesi" idi. Üçüncü məkan məsələsi baxımından nəzəri cəhətdən imzalanmanın həm Brüssel, həm də Moskvada baş tutma ehtimalı irəli sürülə bilər. Xatırladaq ki, 2020-ci ilin noyabrında, 2021-ci ilin yanvarında Ermənistan və Rusiyanın iştirakı ilə üçtərəfli bəyanamələr imzalanıb.

Belə bir məkan kimi uzağa getməmək də olar - bölgənin ən mühüm güc mərkəzlərindən biri olan, Cənubi Qafqazın təhlükəsizlik arxitekturasının yenilənməsində əsaslı rol oynayan, yeni münasibətlər sisteminin formalaşmasının birbaşa iştirakçısı olacaq (Türkiyə - Ermənistan münasibətləri nöqteyi-nəzərdən) Türkiyənin də bu prosesə "ev sahibliyi" etmək ehtimalını irəli sürmək mümkündür. Rəsmi Ankara Azərbaycan ilə müttəfiq və qardaş ölkədir - Ermənistanla isə münasibətlərin normallaşması istiqamətində iş aparılır. O nöqteyi-nəzərdən, "üçüncü ölkə" kimi ən real namizəd statusunda görünə bilər.

Bu sırada Qazaxıstanı da unutmaq olmaz. İkitərəfli formatlı təmaslara məhz rəsmi Astana ev sahibliyi etmişdi. Bu mənada, sülhün Qazaxıstanda imzalanma ehtimalı da ortaya çıxa bilər.

Nəhayət, bu statusda Gürcüstanı da görmək mümkündür. Xatırladaq ki, hələ 2023-cü ilin oktyabrında Azərbaycan Prezidentinin Gürcüstana səfəri zamanı rəsmi Tbilisi prosesə töhfə vermək arzusunu dilə gətirmişdi və bu, Azərbaycanın dövlət başçısı tərəfindən yüksək qiymətləndirilmişdi. Prezident İlham Əliyev bildirmişdi ki, "mənim fikrimcə, ən düzgün seçim həm tarixi əlaqələri, həm coğrafi amili nəzərə alaraq, əlbəttə ki, bu sahədə Gürcüstan ola bilərdi".

*P.SADAYOĞLU*

# “Dekolonizasiya: Sakit inqilab” - yekun sənəd və petisiya...

## Konfrans iştirakçıları BTQ-yə təşəkkürlərini bildiriblər

Azərbaycan neokolonializmə qarşı mübarizə aparan xalqlara dəstəyini davam etdirir. Aprelin 15-də BMT-nin Nyu-Yorkdakı baş qərargahında Bakı Təşəbbüs Qrupu (BTQ) tərəfindən “Dekolonizasiya: Sakit inqilab” adlı beynəlxalq konfransın keçirilməsi də bunun göstəricisidir. Qeyd edək ki, bu beynəlxalq konfrans ilk dəfə BMT-nin tədbiri olaraq qeydiyyata düşüb. Tədbir Afrikaəsilli xalqların Daimi Forumunun 4-cü sessiyası çərçivəsində təşkil olunub. Tədbirdə açılış nitqi ilə çıxış edən BTQ-nin icraçı direktoru Abbas Abbasov milli və müstəqillik hərəkatlarına dəstəklərinin davam edəcəyini bildirib. O, Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi dövrü və daha sonra Bakı Təşəbbüs Qrupunun fəaliyyəti ilə dekolonizasiya prosesinin ikinci dalğasının artıq başlandığını və müsbət nəticələrinin olacağını vurğulayıb.

Tədbir çərçivəsində “İctimai yaddaş, silinmə və afrikaəsilli yerli xalqların müqaviməti” və “Müstəmləkə hökmranlığı altında olan ərazilərdə geosiyasi dekolonizasiyanın dinamikası” adlı sessiyalar təşkil olunub. Fransa və Niderlandın müstəmləkəçiliyi altında olan Qvadelupa, Martinika, Kanaki (Yeni Kaledoniya), Sint-Marten, Reunyon, Bonayre, Aruba, Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianasından ekspertlər, siyasətçilər və fəallar çıxış edərək müstəmləkə siyasətinin yaratdığı sosial, iqtisadi siyasi fəsadlardan, mübarizələrindən, dünya ictimaiyyətinin müstəmləkəçiliyə verdiyi reaksiyadan, müstəmləkə xalqlarının səsinin beynəlxalq müstəviyə çıxarılmasının vacibliyindən və bu istiqamətdə Bakı Təşəbbüs Qrupunun gördüyü işlərdən danışıblar.

A.Abbasov BTQ-nin saytında “Müstəmləkəçilik zülmünün tanınması və təzminatların ödənilməsi tələbi” adlı petisiyanın başladıldığını elan edib. O, petisiyada müstəmləkəçilik zülmünə məruz qalmış xalqlara vurulmuş maddi və mənəvi zərərlərin beynəlxalq səviyyədə tanınması və təzminat ödənilməsinin tələb edildiyini bildirib.

Konfrans iştirakçıları tədbirin sonunda yekun sənəd qəbul ediblər. Sənəddə kolonializmin dünya miqyasında bərpa edilməsi mümkün olmayan dərin yaralar vurduğu qeyd olunub, kolonial güclərin öz tarixi cinayətlərinə görə davamlı olaraq məsuliyyətə cəlb olunmaqdan imtina etmələri qətiyyətlə pislənilib. Bəyanatda, həmçinin Fransa və Niderland kimi dövlətlərin bu gün də öz kolonial siyasətlərindən əl çəkmədiyi vurğulanır, onların Qvadelupa, Martinik, Fransız Qvianası, Reyunyon, Mayot, Boneyra, Sin-Marten və digər əraziləri əsarət altında saxlamaqda davam etdikləri vurğulanıb.

Müstəmləkəçilik cinayətlərinin bəşəriyyətə qarşı cinayət olduğu vurğulanaraq, müstəmləkə rejimlərinin törətdikləri cinayətlərə görə ləyaqətli təzminat ödəməli olduqları bildirilib. Əks təqdirdə onlara qarşı beynəlxalq sanksiyaların qəbul edilməsinə dair çağırış edilib. Bundan əlavə, sənəddə Bakı Təşəbbüs Qrupu kimi QHT-lərə beynəlxalq hüquq çərçivəsində kolonializmin ifşa edilməsi istiqamətində apardıqları fəaliyyətə dəstək ifadə edilib, martın 28-də Fransanın Milli Assambleyasında Bakı Təşəbbüs Qrupuna qarşı qəbul edilmiş qətnamə qətiyyətlə pislənilib.



Sonda tədbir iştirakçıları BTQ-yə tədbirin təşkilinə görə təşəkkürlərini ifadə ediblər. Bonayre İnsan Hüquqları Təşkilatının prezidenti Davika Bissessar deyib ki, Bakı Təşəbbüs Qrupunun BMT-də keçirdiyi beynəlxalq konfrans səsimizi ucaltmaq üçün çox yaxşı fürsətdir. O bildirib ki, Karib dənizindəki kiçik adalar olan Martinika, Qvadelupa, Sint-Martin və Bonayrenin səsini əvvəllər heç kəs eşitmirdi: “Məsələn, Bonayrenin BMT-də, hətta Niderlandda heç bir nümayəndəliyi yoxdur. Beləliklə, biz BMT-yə gələ bilməkdən və xalqımızın adından danışmaqdan çox qürur duyuruq. Bonayredə 2010-cu ilə qədər özünüidarə mövcud idi. Həmin ildən biz kənarda qəbul edilən qanunlara görə özünüidarəni həyata keçirə bilmirik. Bu o deməkdir ki, biz yenidən müstəmləkə olunduq. İnsanların çoxu Bonayrenin harada olduğunu bilmir. Adamız Venesueladan 50 mil aralıda yerləşir. Çox az adam bizim vəziyyətimizdən xəbərdardır. Beləliklə, Bakı Təşəbbüs Qrupu Fransız Polineziyası, Sakit okean və Karib hövzəsində olan müstəmləkə ərazilərinin səsini eşitdirmək üçün çox yaxşı işlər görür”.

“Biz uzun müddətdir müstəmləkəçiliklə bağlı mübarizə aparırıq, lakin bizim səsimizi heç kəs dinləmir, kimliyimizi tanımırdi”,- deyən Qvadelupadan olan Beynəlxalq Dekolonizasiya Cəbhəsinin katibi Xose Martin Jan Pyer isə qeyd edib ki, bu gün artıq Bakı Təşəbbüs Qrupu sayəsində bizi beynəlxalq arenalarda tanıyırlar və səsimizi eşitməyə başlayıblar: “Bizim əsas problemimiz müstəmləkəçilikdir, lakin xalqımız iqtisadi sıxıntılarla da üzləşib. Vaxtilə müstəmləkəçiliklə bağlı bölgəmizə gələn insanlar bazarlarda sistemi ələ keçiriblər. Xalqımız iqtisadi baxımdan çətin vəziyyətdədir”.

BMT eksperti Karlayl Korbin isə qeyd edib ki, 2025-ci ildə bütün dünyaya yayılan müasir müstəmləkəçilik məsələsi ilə məşğul olmaq üçün strategiyalar hazırlamağımız vacibdir. O, Bakı Təşəbbüs Qrupunun keçirdiyi bütün tədbirlərin böyük əhəmiyyət daşıdığını və tədbirin BMT binasında keçirilməsinin digər institutlarla əlaqələndirmə baxımından vacib olduğunu bildirib. Onun sözlərinə görə, bir sıra müstəmləkə ərazilərinin Birləşmiş Millətlər Təşkilatının dekolonizasiya edilməli ölkələr siyahısına daxil edilmək niyyətləri artıq müzakirələrin uğurundan xəbər verir: “Bu, mühüm addımlardan biridir və hesab edirəm ki, bir çox digər ərazi də eyni şeyi həyata keçirməkdə maraqlıdır”.

Ekspert BTQ-nin sifarişi ilə hazırladığı “Fransız kolonializminin təkamülü: Siyasi və konstitusional tədqiqat” adlı hesabatda Fransa müstəmləkəçiliyinin təkamülündən bəhs edildiyini söyləyib: “Biz müstəmləkəçiliyin qlobal miqyasda rolunu da nəzərdən keçirdik. Həmçinin bu günə qədər zamanla inkişaf etmiş müxtəlif tənzimləmələr, siyasi və konstitusiya tənzimləmələrinə baxdıq. Bu səbəbdən fəaliyyətimizi sənədləşdirməyə davam edirik. Əslində, kitab xalqların öz müqəddəratını təyin etmələrini təşviq etməklə bağlı hökumətlərin fəaliyyətləri və BMT-nin səylərini sənədləşdirir”.

***N.BAYRAMLI***

# AŞPA-nın səhvi...

**Azərbaycan ərazi bütövlüyünü və suverenliyini təmin etdikdən sonra müəyyən beynəlxalq dairələr ölkəmizə qarşı qərəzli yanaşma ortaya qoyurlar. Bütün bunlar beynəlxalq hüququn və ədalət prinsiplərinin açıq-aşkar pozulması şəraitində baş verir. Azərbaycana qarşı ədalətsiz mövqe tutan Avropa Parlamenti ilə yanaşı, Avropa Şurası Parlament Assambleyası da (AŞPA) özünün “erməni sevgisi” naminə Avropa dəyərlərini tapdalayır.**

## Teodoros Rusopulosun acizliyi...

Görünən odur ki, təşkilat ölkəmizə qarşı qərəzini hələ də davam etdirməkdə qərarlıdır. Belə ki, bugünlərdə AŞPA prezidenti Teodoros Rusopulosun “Alpha News” mətbuat orqanına verdiyi müsahibəsində Azərbaycana münasibətdə irqi ayrı-seçkilik, ölkə hakimiyyəti ilə bağlı böhtan və qərəzlə dolu fikirləri də bunun göstəricisidir. AŞPA rəhbəri müsahibədə qurumun qərəzli mövqeyinə haqq qazandırmağa çalışsa da, bunu bacarmayıb. O, Azərbaycanın Avropa Məhkəməsi ilə bağlı mövqeyini də yanlış təfsir edib.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev ADA Universitetində “Yeni dünya nizamına doğru” beynəlxalq forumda Avropa Məhkəməsi ilə bağlı bildirib: “Avropa İnsan Haqları Məhkəməsinin hakimlərinin seçkilərində iştirak etməmişik, bu məhkəmənin bütün qərarları bizim üçün etibarsızdır. Bu, bizim tutduğumuz mövqedir və fürsətdən istifadə edərək bildirirəm ki, Avropa Məhkəməsinin heç bir qərarının bizim üçün hüquqi qüvvəsi yoxdur, çünki biz səsvermə hüququndan məhrum edilmişik. Biz bu Avropa Şurasının hakimlərinin kim olduğunu bilmirik. Azərbaycana qarşı ayrı-seçkilik etmək, bizi təcrid etmək istəyirdilər, amma əslində özlərini Qafqazdan təcrid etdilər”. Teodoros Rusopulos isə müsahibəsində bu arqumentin qarşısında aciz qaldığı üçün dövlətimizə böhtan atmaqla kifayətlənib.

## İşğalçını cəzalandırmayan AŞPA

Avropa Şurasının fəaliyyətində insan haqları əsas yer tutmalı olsa da, Azərbaycan ötən dövrdə üzləşdiyi qaçqın-köçkün problemi ilə əlaqədar qurumdan ədalətli yanaşma görməyib. AŞPA Ermənistanın 30 illik işğal siyasətinə qarşı heç bir addım atmayıb. Halbuki, bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alına bilərdi. 2001-ci ildə Azərbaycan bu təşkilata üzv olarkən onun Ermənistanın işğalçı siyasətinə qarşı ciddi addımlar atacağına ümid edirdi. Lakin ötən dövrün təcrübəsi göstərir ki, ermənipərəst, islamofob qüvvələr bu təşkilatdan daim Azərbaycana qarşı vasitə kimi istifadə ediblər.
AŞPA nəinki Ermənistanı işğalçı siyasətini tanımadı, əksinə erməni lobbisinin maraqlarına uyğun olaraq ölkəmizə qarşı müxtəlif vaxtlara qərəzli qətnamələr qəbul edib. Hansı ki, Avropa Şurasının əsas meyarı insan hüquqlarının qorunmasıdır. Lakin Ermənistanın işğalçı siyasəti nəticəsində yüz minlərlə azərbaycanlının doğma yurdlarından qaçqın və məcburi köçkün düşməsini bu təşkilat görməzdən gəldi. Bu da Azərbaycana qarşı ikili standartların bariz nümunəsidir.




## AŞPA islamofob və türkəfobların düşərgəsidir

Görünən odur ki, AŞPA müxtəlif Avropa ölkələrinin Avropa Parlamentinə düşə bilməyən islamofob və türkəfob təfəkkürlü nümayəndələrinin düşərgəsidir. Bunu sübut edən faktlardan biri də 2024-cü il qış sessiyasının açılış günündə AŞPA-da ölkəmizin nümayəndə heyətinin etimadnamələri təsdiq edilməməsidir. Bu təşəbbüsü Almaniyanı təmsil edən, sosialistlər siyasi qrupunun rəhbəri Frank Şvabe irəli sürüb və həmin təşəbbüs təsdiqlənib. Frank Şvabe təşəbbüsü irəli sürərkən çıxışında əsassız olaraq “100 mindən artıq Qarabağ ermənilərinin zorakılıqla qovulması və AŞPA məruzəçilərinin Laçın yoluna buraxılmamasını Azərbaycanın təşkilatla əməkdaşlıqdan yayınması kimi qiymətləndirib”. Əslində, qalmaqallı təşəbbüs formal olaraq almaniyalı deputat Frank Şvabe tərəfindən irəli sürülsə də, məsələnin arxasında AŞPA rəhbərliyinin özünün durduğu bilinən faktdır. Amma Azərbaycan bunu cavabsız qoymayıb və nümayəndə heyətimiz təşkilatdakı fəaliyyətini dayandırıb. İndi AŞPA rəhbərinin ölkəmizə qarşı böhtan atması da qurumun öz “ənənəsinə” sadiq qaldığını təsdiqləyir.

Lakin Azərbaycan güclü dövlətdir və heç qüvvə ölkəmizlə diqtə ilə danışa bilməz. Azərbaycan Xarici İşlər Nazirliyinin AŞPA prezidentinə verdiyi cavab da bunun göstəricisidir. XİN-in mətbuat katibi Ayxan Hacızadənin bildirdiyi kimi, Avropa Şurası nizamnaməsinin pozulması, AŞPA tərəfindən səlahiyyətlərin aşılması nəticəsində Azərbaycan əleyhinə addımdan sonra belə, dialoqa açıqlığımızı nümayiş etdirməyimizə baxmayaraq, Rusopulos, Şvabe və onlar kimi bir sıra şəxslərin davamlı şəkildə ölkəmizin beynəlxalq hüquqa və ədalətə söykənən mövqeyinə kölgə salmağa çalışdıqları məlumdur. Onun sözlərinə görə, AŞPA bu illər ərzində ikili standartlar əsasında apardığı anti-Azərbaycan siyasəti ilə xalqımızın haqlı nifrətini qazanıb: “AŞPA-da Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin dayandırılması barədə ədalətsiz və hüquqi cəhətdən suallar doğuran təşəbbüsü dəstəkləyən 76 nəfər AŞPA üzvü kimi Teodoros Rusopulosun da adı qara siyahıya daxil edilib. Rusopulos Azərbaycana soxularsa, rədd ediləcək”.

Xatırladaq ki, Qərbi Azərbaycan İcması da AŞPA prezidenti Teodoros Rusopulosun Azərbaycan barədə ifadə etdiyi irqi ayrı-seçkilik, böhtan və qərəzlə dolu fikirlərini sərt şəkildə qınayıb. Bütün bunlar göstərir ki, Azərbaycanla heç bir beynəlxalq təşkilat hökmlə danışa bilməz. Bundan əlavə, ikili standartları ilə AŞPA kimi təşkilatlar əslində, özlərini dünyada nüfuzdan salırlar. Əgər təşkilat imicini bərpa etmək istəyirsə, beynəlxalq hüquqa uyğun fəaliyyət göstərməli, o cümlədən Azərbaycana qarşı etdiyi səhvi düzəltməlidir. IV Antalya Diplomatiya Forumunda Avropa Şurasının Baş katibi Alen Bersenin Prezident İlham Əliyevlə görüşü də bu baxımdan diqqəti cəlb edir. Beləliklə, Avropa Şurası dərin böhran içərisindədir. Böhrandan çıxış yolu isə səhvləri etiraf edərək ədalətli mövqe sərgiləməkdir.

***Nardar BAYRAMLI***

# Növbəti ilin büdcə hazırlığına başlanılıb

## Gələn il dövlət büdcəsinin gəlir və xərclərində artımlar gözlənilir

Maliyyə Nazirliyi 2026-cı il və sonrakı üç il üçün dövlət və icmal büdcələrinin ortamüddətli proqnoz göstəricilərini açıqlayıb. Məlumata əsasən, gələn il dövlət büdcəsinin gəlirləri 39 milyard 251 milyon 300 min manat, xərcləri isə 42 milyard 230 milyon manat gözlənilir. Beləliklə, 2025-ci illə müqayisədə 2026-cı ildə dövlət büdcəsinin gəlirləri 895 milyon 300 min manat, yaxud 2,33 faiz, xərcləri 822 milyon 400 min manat, yaxud 1,98 faiz artacaq. Xatırladaq ki, 2025-ci il dövlət büdcəsinin gəlirləri 38 milyard 356 milyon manat, xərcləri isə 41 milyard 407 milyon 600 min manat məbləğində təsdiq edilib.

### Büdcə siyasətinin əsas hədəfləri

2026-cı il və sonrakı üç il üçün dövlət və icmal büdcələrinin proqnoz göstəriciləri, büdcə dayanıqlığı və digər cari məsələlər bir neçə gün əvvəl - aprelin 11-də İqtisadi Şuranın iclasında da müzakirə edilmişdi. İclasda büdcə siyasəti üzrə prioritet xərc istiqamətləri, əsas hədəflər, ortamüddətli dövr üçün ilkin makroiqtisadi proqnozlar və makro-fiskal çərçivə ssenariləri müzakirə olunub, Maliyyə Nazirliyinə və digər aidiyyəti qurumlara növbəti ilin büdcə zərfinin hazırlığı ilə bağlı müvafiq tapşırıqlar verilib.

Növbəti ildə də büdcə siyasətinin əsas prioritet xərc istiqamətləri ölkənin işğaldan azad edilən ərazilərinin bərpası və yenidən qurulması, müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və sosial təminatının yaxşılaşdırılması, həmçinin bir sıra zəruri dövlət funksiyalarının yerinə yetirilməsi üçün müvafiq maliyyə vəsaitinin təmin edilməsi ilə bağlı olacaq. Həmin hədəflər 2026-2029-cu illəri əhatə edən növbəti ortamüddətli dövr üçün ölkə qarşısında dayanan yeni çağırışlara uyğundur. Ortamüddətli dövrdə həyata keçirilən fiskal siyasət makroiqtisadi sabitlik, fiskal dayanıqlılıq və iqtisadi müstəqillik məqsədlərinə xidmət etməklə, prioritet istiqamətlər üzrə müvafiq maliyyə təminatının yaradılmasını, büdcə və borc intizamının təmin edilməsini, büdcə xərclərinin səmərəliliyini və effektivliyini, dövlət maliyyəsinin idarə olunmasının təkmilləşdirilməsini nəzərdə tutur. Qeyd edək ki, Ortamüddətli Büdcə Çərçivəsi (OMBÇ) özündə büdcə siyasətinin əsas istiqamət və hədəflərini, makro-fiskal çərçivəni, Milli Xərc Prioritetlərini, Ortamüddətli Resurs Zərfini, icmal büdcənin və dövlət büdcəsinin gəlir və xərclərinin proqnozlarını, habelə dövlət büdcəsi xərclərinin funksional təsnifatının büdcə islahatlarına cəlb olunan bölmələrinə daxil olan sektorlarda nəzərdə tutulan proqramların həyata keçirilməsi üçün ayrılan vəsaitlərin yuxarı hədlərini ehtiva edir.




### 2026-cı ildə ÜDM-in 135,7 milyard manata çatacağı fərz edilir

Qeyd edək ki, dövlət büdcəsinin gəlir və xərcləri ölkənin makroiqtisadi inkişaf proqnozlarına əsaslanır. İqtisadiyyat Nazirliyi tərəfindən cari ilin mart ayında təqdim olunan proqnozlara əsasən, baza ssenaridə neftin bir barrelinin orta illik ixrac qiyməti 2026-cı il üçün 65 dollar və 2027-2029-cu illər üçün də eyni qalacağı fərz edilir. 2026-cı ilin sonuna ÜDM-in həcmi 135,7 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-nin həcmi 101,3 milyard manat təşkil edəcəyi, 2029-cu ildə isə ÜDM-in 162,6 milyard manata qədər, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcmi 129,1 milyard manata qədər artacağı gözlənilir. Ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,8 faiz, qeyri-neft-qaz ÜDM-in 5,1 faiz olacağı proqnozlaşdırılır. 2025-ci ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 1,2 faiz artacağı proqnozlaşdırılır. 2029-cu ildə ÜDM-in tərkibində qeyri-neft-qaz sektorunun payının artaraq 79,4 faizə çatacağı, neft-qaz sektorunun payının isə 20,6 faizə bərabər olacağı ehtimal edilir.

### Əhalinin gəlirləri inflyasiyanı üstələyəcək

Neft və qaz hasilatı üzrə sabitləşdirmə tədbirlərinin nəticəsi olaraq 2029-cu ildə neft və qaz hasilatının artacağı proqnozlaşdırılır. 2025-ci ildə neft hasilatının azalacağına baxmayaraq qaz hasilatının artması sektorun inkişafına artırıcı təsir edəcək. 2027-2029-cu illərdə neft və əmtəəlik qaz hasilatı üzrə azalmanın davam etməsi nəzərə alınaraq neft-qaz sektorunda azalma gözlənilir, 2026-cı ildə əsas kapitala olan investisiyalarda 3,8 faiz, ortamüddətli dövrdə isə orta illik 3,7 faiz artım olacağı, 2026-cı ildən 2029-cu ilin sonuna doğru neft-qaz sektoruna yönəldilən kapital qoyuluşlarında artım fərz olunur. Əsas kapitala investisiyaların proqnozlaşdırılması zamanı neft-qaz sektoru üzrə əsas təşkilatlardan alınmış investisiya proqnozları, dövlət büdcəsinin əsaslı xərcləri üzrə Maliyyə Nazirliyinin proqnozları, o cümlədən işğaldan azad edilmiş ərazilərdə irimiqyaslı quruculuq işləri ilə əlaqədar investisiyalar, strategiya çərçivəsində qeyri-neft-qaz sektoruna cəlb olunacaq birbaşa xarici investisiyaların illik 10-15 faiz artması hədəfi nəzərə alınıb. Həmçinin, investisiyaların iqtisadi səmərəliliyinin və şəffaflığının yüksəldilməsi, bank-maliyyə sektorunun maliyyə vasitəçiliyi funksiyasının gücləndirilməsi sərmayə qoyuluşlarını təşviq edəcək.

Hökumətin iqtisadi bloku tərəfindən beynəlxalq təşkilatların ərzaq və əmtəə qiymətləri ilə bağlı proqnozları, tənzimlənən qiymətlərin artırılmaması fərziyyəsi, eləcə də antiinflyasiya tədbirləri nəzərə alınaraq istehlak qiymətləri indeksi gələn il baza ssenaridə 5-5,5 intervalında proqnozlaşdırılıb. Ortamüddətli dövrdə əhalinin gəlirlərinin artımı isə inflyasiyanı üstələyəcək.

***ELBRUS CƏFƏRLİ***

# İnkişaf etmiş dövlətlər qrupunda...

## Azərbaycanın İT hesabatlarında mövqeyi yüksəlir

"Speedtest Global Index"in hesabatına əsasən, Azərbaycan mart ayında mobil internetin sürəti üzrə ötən ayın müvafiq göstəricisi ilə müqayisədə 3 pillə irəliləyərək 74,11 MB/S sürətlə 102 ölkə arasında 52-ci olub. Hesabatda birinci yeri Birləşmiş Ərəb Əmirlikləri (543,29 MB/S), sonuncu yeri isə Boliviya (13,09 MB/S) tutub. Hesabatın şəhərlər üzrə indeksində Azərbaycanın paytaxtı Bakı sabit genişzolaqlı internetin sürətinə görə, əvvəlki aya nisbətən öz yerini qoruyaraq 197 şəhər arasında 73,32 MB/S sürətlə 114-cü yerdə qərarlaşıb. Şəhərlərin sabit genişzolaqlı internet üzrə reytinqinə Əbu-Dabi (355,02 MB/S) başçılıq edib. Sonuncu pillədə Hələb (2,14 MB/S) qərarlaşıb.

Azərbaycan sabit genişzolaqlı internetin orta sürətinə (73,60 MB/S) görə 154 ölkə arasında 91-ci olub. Bu göstəriciyə əsasən, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkədə sabit genişzolaqlı internetin orta sürəti 92 faiz artıb. Sabit genişzolaqlı internetin sürətinə görə ötən ay birinci yeri Sinqapur (357,52 MB/S), axırıncı yeri isə Suriya (3,21 MB/S) tutub.

### "Keçid" qrupundan "İnkişaf etmiş" qrupa

Azərbaycanda rabitə və telekommunikasiya sektorunun inkişafı istiqamətində yürüdülən siyasət və aparılan əhatəli tədbirlər ölkəmizdə internetə çıxış imkanlarının və genişzolaqlı sürətin artmasına səbəb olmaqdadır. Bir müddət əvvəl Mobil Rabitə Assosiasiyası (GSMA) tərəfindən dərc edilən "Mobile Connectivity Index" hesabatında Azərbaycan 173 ölkə arasında orta mövqedə qərarlaşıb. Ölkəmiz "Mobile Connectivity Index" üzrə "Keçid" (Transitioner) qrupundan, "İnkişaf etmiş" (Advanced) qrupuna daxil edilib. Mövcud qlobal dəyərləndirmə Azərbaycanda orta internet sürətinin dünyanın orta statistik göstəricilərinə bərabər olduğunu göstərir.

Əldə edilən mühüm nəticə ölkəmizdə İKT sektorunun inkişaf etdirildiyini, rəqəmsal dövlət quruculuğunun komponentlərinin yaradıldığını və geniş tətbiq edildiyini göstərir. Bütün bunların nəticəsidir ki, son illər İT və innovasiyalar üzrə hesabatlarda ölkəmizin mövqeyi yüksəlir. Dünya Bankı (DB) tərəfindən 2023-cü ildə dərc edilmiş qlobal tədqiqat sənədində Azərbaycan "4G+" mobil şəbəkə infrastrukturun vəziyyətinə görə, region ölkələri sırasında əlverişli dövlətlər qrupunda yer alıb. Sənəddə qeyd edilir ki, əhalinin 94 faizi genişzolaqlı internetlə əhatə olunub.




### İKT-nin İnkişaf İndeksi üzrə yaxşı nəticə

Ötən il nəşr edilən "Qlobal İnnovasiya İndeksi"ndə ölkəmiz innovasiya fəaliyyətinin səmərəliliyinə görə, irəliləyiş əldə edib və göstəricilərini 4 pillə yaxşılaşdıraraq 89-cu yerdə qərarlaşıb. Azərbaycan "innovasiya resursları" alt indeksi üzrə isə 76-cı yerdədir. Qeyd edək ki, "innovasiya resursları" və "innovasiya nəticələri" çox mühüm əhəmiyyətə malik indekslər olmaqla, bir-birinə qarşılıqlı olaraq bağlıdır. Həmin göstəricilər üzrə irəliləyiş Azərbaycanın bu sahədə müasir institutlar yaratdığını, insan kapitalını, elm və təhsil potensialını inkişaf etdirdiyini, səmərəli biznes modelləri qurduğunu təsdiq edir. Ölkəmiz digər indikatorlar olan "institusional mühit" istiqaməti üzrə 54-cü, "hökumətin səmərəliliyi" göstəricisi üzrə 58-ci yerə layiq görülüb. Azərbaycan "biznes mühiti" indikatoru üzrə 17-ci, "biznesin aparılması siyasəti" üzrə isə 22-ci yeri tutmaqla Avropa məkanında ən innovativ imkanlara malik ölkələr qrupuna daxil olub.

Digər qlobal reytinq hesabatlarında, o cümlədən Dünya İqtisadi Forumunun "Qlobal İnformasiya Texnologiyaları", BMT-nin "E-Hökumət müayinəsi" hesabatlarında mövqeyini yaxşılaşdıraraq bir neçə pillə yüksəlib. Qeyd edək ki, həmin reytinqlərdə 10-dan artıq İKT göstəricisi, qlobal, regional və milli səviyyədə müqayisəli rabitə göstəriciləri təhlil edilir.

Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən dünya ölkələrində informasiya-kommunikasiya texnologiyaları sahəsində inkişaf səviyyəsinin araşdırılmasına dair hesabatda da ölkəmiz mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa nail olub. Hesabatda Azərbaycan İKT-nin İnkişaf İndeksi üzrə hesabatında dünya ölkələri arasında 65-ci yeri tutub.

### Kibertəhlükəsizlik indeksində layiqli mövqe

Beynəlxalq Telekommunikasiya İttifaqının (İTU) ötən ilin sonlarında dərc etdiyi "Qlobal kibertəhlükəsizlik indeksi 2024" (Global Cybersecurity Index. 2024) hesabatında da Azərbaycan 93,76 xal toplamaqla öz mövqeyini yüksəldib.

194 ölkənin 20 indikator üzrə qiymətləndirilməsinin aparıldığı hesabata əsasən, son 4 ildə kibertəhlükəsizlik sahəsində dünya ölkələrinin orta reytinq göstəricisi təxminən 20 faiz yüksəlib və qlobal orta göstərici 65,7 xala çatıb. Dünya üzrə ən maksimum nəticəni, yəni mümkün maksimum 100 xaldan 99-100 balı toplayan ölkələr Türkiyə, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Cənubi Koreya, Danimarka, Finlandiya, İndoneziya, İtaliya, Misir, Mavritaniya, Qatar və Səudiyyə Ərəbistanı olub. 90-95 xal arası nəticə göstərən ölkələr arasında digər inkişaf etmiş dövlətlər, o cümlədən Azərbaycan yer alıb.

Respublikamızın qlobal İT hesabatlarında mövqeyini yaxşılaşdırması açıq fiberoptik kanallara çıxış imkanlarını yaxşılaşdırmağa, eləcə də informasiya təhlükəsizliyi ekosisteminin möhkəmləndirilməsinə mühüm töhfə verəcək.

***E.CƏFƏRLİ***

# Eçmiədzindən Vatikana "şikayət məktubu"...

## Qədim alban irsi erməni kilsəsində "zəlzələ" effekti yaradıb

**Azərbaycandakı multikultural həyat tərzi, dözümlülük və tolerantlıq hər zaman nümunə olaraq göstərilib. Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu mənada, zaman-zaman Azərbaycan təcrübəsinin öyrənilməsinə ehtiyac yaranır - bu təcrübə isə qlobal sabitliyin təminində mühüm amil kimi önə çıxır. Məsələn, Azərbaycanda həm dini, həm də milli rəngarəngliyə baxmayaraq, insanlar arasında heç bir fərq qoyulmur - hətta bütün dinlərə mənsub tarixi abidələrimiz qorunub saxlanılır. Zəngin qədim tarixə malik Azərbaycandakı dini abidələrə dövlət tərəfindən qayğı göstərilir.**

**Qeyd edildiyi kimi, beynəlxalq aləm davamlı şəkildə Azərbaycanda mövcud olan bu yüksək və hələ qədim zamanlardan formalaşan yaşam tərzinin araşdırmasını aparır, bu istiqamətdə konfranslar keçirir, müzakirələr açır. Azərbaycanın müvafiq strukturları da bu istiqamətdə səylərini əsirgəmirlər - amma təəssüf ki, bu kimi yüksək dəyərləri təbliğ edən tədbirlər bir sıra məkrli dairələr tərəfindən qərəzlə qarşılanır, bu konfranslara qarşı kampaniyalar aparılır...**

### Alban irsi Vatikanda müzakirə olunur...



Məsələn, aprelin 10-da Müqəddəs Taxt-Tacın Vatikan Qriqorian Pontifik Universitetində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfirliyi və Alban-Udi Xristian Dini İcmasının birgə təşkilatçılığı ilə "Azərbaycanda xristianlıq: tarix və müasirlik" mövzusunda Qafqaz Albaniyası irsinə həsr edilən XII beynəlxalq elmi konfrans keçirilib. KİV-də yayılan məlumata əsasən, konfransın açılış mərasimində çıxış edən ölkəmizin Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov bildirib ki, tədbir Azərbaycanda xristianlığın, dini müxtəlifliyin və multikulturalizmin zəngin tarixinin araşdırılmasına həsr olunub. Diplomat qeyd edib ki, Avropa və Asiyanın kəsişməsində yerləşən Azərbaycan uzun müddətdir ki, müxtəlif sivilizasiyaların, mədəniyyətlərin və dinlərin qovuşduğu məkan olub. Bu baxımdan, belə bir mühüm tədbirin nüfuzlu Qriqorian Pontifik Universitetində keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Panel iclaslarında Türkiyə, Qazaxıstan, Özbəkistan, Koreya Respublikası, Rusiya, Polşa, İtaliya, Gürcüstan, Almaniya, Fransa, Kanada, ABŞ və Litvadan olan albanşünas mütəxəssislərin məruzələri dinlənilib və bu mövzular ətrafında geniş müzakirələr aparılıb.

Bu kimi mühüm tarixi müzakirələrə həsr olunan tədbir ermənilər tərəfindən hədəfə alınıb - erməni kilsəsi və erməni lobbisi bu tədbirin əleyhinə açıq kampaniya başladıb. Belə ki, Eçmiədzin kilsəsi bəyanat verərək guya tədbirdə "Ermənistanın və Artsaxın tarixi-mədəni irsinin erməni kimliyini inkar etməyə cəhd edilib". Eçmiədzin "katolik ali təhsil müəssisəsinin divarları arasında belə bir antielmi tədbirin keçirilməsinə icazə verilməsindən təəssüflənir və kilsələrarası ünsiyyət çərçivəsində lazımi addımları atmaq niyyətindədir". İddia olunur ki, simpozium zamanı guya "artsax"ın bütün erməni xristian irsi alban və ya udin icmasına mənsub olduğu kimi təqdim edilib. Ermənilər əvvəl iddia edib ki, guya etibarlı mənbələrdən rəsmi Vatikanın bu konfransdan xəbərsiz olduğunu öyrəniblər. Qriqorian Universiteti tədbir üçün yalnız zal icarəyə götürüb və erməni icması artıq universitetə etiraz məktubu göndərib. Roma erməni icması şurası da Qriqorian Universitetində "belə bir antierməni tədbirin keçirilməsi faktından məyus olub". Roma erməni icması şurası hətta Vatikana və xəstəhal Papaya da ləkə yaxaraq iddia ediblər ki, guya Bakı rəsmi Vatikana və universitetə külli miqdarda pul vəd edib.

Böyük Kilikiya evinin katolikosu I Aram Vatikanın Şərqi Katolik Kilsələri İcmasının baş prefekti, kardinal C.Kijerotiyə məktub ünvanlayıb. I Aram Vatikanın Qriqorian Universitetində keçirilən "Azərbaycanda xristianlıq" adlı konfransla bağlı etirazlarını bildirib. Katolikos deyib ki, "müzakirə olunacaq mövzular və məruzəçilər, xüsusilə də erməni kilsəsi ilə bağlı mövzularla bağlı yuxarıda adıçəkilən konfransın birtərəfli təşkili və erməni mütəxəssislərin orada iştirak etməməsi tarixi həqiqətə qarşı açıq-aşkar ədalətsizlikdir". Daha sonra "qədim erməni irsi", ilk xristian ermənilər və onların kilsələri arasında sıx əlaqələr", eləcə də "Artsaxda erməni kilsəsinin fəal və mütəşəkkil mövcudluğu" kimi uydurma iddialardan danışaraq xeyli çərənləyib. O həmçinin "Artsaxın erməni xalqının soyqırım siyasəti nəticəsində Azərbaycan hakimiyyətinin təşkil etdiyi məcburi deportasiya" fikrini də məktuba soxuşdurub. I Aram eyni zamanda Qarabağ erməniləri ilə bağlı məsələlərə Vatikan hakimiyyətinin göstərdiyi müsbət yanaşmanı vurğulayaraq, "əminik ki, Vatikan hakimiyyəti yuxarıda qeyd olunan konfransın birtərəfli və qeyri-dəqiq yanaşmalarını bölüşməyəcək" deyərək məktubuna yekun vurub.

### Kilsə yenə də öz ampluasındadır...



Beləliklə, erməni kilsəsi yenə də öz ampluasındadır. Bu kilsə hər zaman xalqlararası münaqişələrin qızışdırılmasında "lokomotiv" rolunu oynayıb. Tarixən Ermənistan ilə Azərbaycan arasında yaranan qarşıdurmalarda hər zaman "xüsusi rol oynayan" erməni kilsəsi indiki mərhələdə də özünün qara niyyətindən əl çəkmək istəmir. Din hər zaman birləşdirici və sülhyaradıcı funksiyası ilə tanınıb, şöhrət tapıb. Erməni kilsəsinin bu qızışdırıcı, müharibəyə təhrik edən mövqeyi isə heç bir dinlə, müqəddəsliklə uzlaşmır. Bu insanların dini inanclara hörməti isə əməllərindən bəllidir - Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində rəsmi qeydiyyatda olan 67 məsciddən 65-i dağıdılıb, məbədlər, qəbiristanlıqlar, tarixi abidələr, muzeylər, kitabxanalar talan edilib, 2 məscid tövləyə çevrilib, orada İslam dinində haram sayılan heyvanlar saxlanılaraq bütün İslam dünyasına həqarət olunub.

### Saxta təbliğat, qondarma "erməni tarixi"...

Beləliklə, erməni məkri yenə də özünü göstərir - Azərbaycanın təşkil etdiyi tarixi həqiqətlərə həsr olunan bu kimi yüksəksəviyyəli tədbirə qarşı qarayaxma aparmaqda məqsəd isə qorxu və narahatlıqdır. Həm erməni kilsəsi, həm də erməni lobbisi bu kimi tədbirlər nəticəsində dünyanın əsl həqiqətləri eşidəcəyindən narahatdr. Axı illərdir ki, istər Qarabağda, istərsə də tarixi Azərbaycan torpaqları olan indiki Ermənistan Respublikasındakı tarixi-dini abidələri öz adlarına çıxan, Azərbaycan xalqına mənsub və məxsus olan qədim alban irsini mənimsəyən ermənilərin bütün yalanları ifşa olacaq - ermənilər hər kəsdən yaxşı anlayırlar ki, yaratmağa çalışdıqları qondarma tarixin heç bir əsası, sübutu və dəlili yoxdur. Azərbaycanın tarixi ərazilərinə qoyduqları qondarma adlar belə sabun köpüyü kimi heç bir effekt daşımır - tam əksinə, bir çox hallarda ermənilərin yalan təbliğatının ortaya çıxmasına şərait yaradır.

Onlar anlayırlar ki, saxta tarix üzərində qurduqları "dini təbliğatın" altı boşdur - Azərbaycan xalqına mənsub alban kilsəsinin tarixinin təbliği zəlzələ effekti yaradır və bu yalan təbliğat yerlə-yeksan olur. Necə ki, vaxtilə özləri haqda yaratdıqları hərbi mif kimi...

*P.İSMAYILOV*

# Vaşinqton Ermənistanla bağlı layihələri ləğv etdi...

## Yeni hökumət Baydenin "səhvlərini" düzəldir - xartiya da sıradan çıxacaq

Co Baydenin dövründə "pöhrələnən" Ermənistanın "Qərb arzuları" iflasa uğradı. Özünü ciddi-cəhdlə ABŞ-ın "yaxını", hətta "tərəfdaşı" kimi qələmə verməyə çalışan İrəvanın bütün planları yerlə-yeksan oldu. Belə ki, ABŞ Dövlət Departamenti müxtəlif ölkələrdə, o cümlədən Ermənistanda xarici yardım layihələrinin maliyyələşdirilməsini ləğv edib. Dövlət Departamenti Moldova, Belarus, Ermənistan və Özbəkistan da daxil olmaqla, xarici media, müxtəliflik, bərabərlik və inklüziv layihələr üçün nəzərdə tutulan 139 qrant proqramını ləğv edib. Ləğv edilmiş xarici layihələrin ümumi dəyəri 215 milyon dollar dəyərində dəyərləndirilir. "The Washington Free Beacon" nəşri yazıb ki, Dövlət katibi Marko Rubio tərəfindən verilən bu qərarın artıq aprelin 15-dən etibarən icrasına başlanılıb.



**İlon Maskın rəhbərlik etdiyi departamentin araşdırması nəticəsində...**

Qeyd edək ki, Ermənistanda dayandırılan layihə proqramları ekoloji davamlılığı və bəzi demokratik inkişaf məqsədlərini əhatə edir. Bildirilir ki, Bayden dövründən "miras" qalan bu layihələrə Dövlət Departamenti hələ fevralın sonunda ilkin baxış keçirmişdi. Sonradan isə İlon Maskın başçılıq etdiyi Hökumətin Effektivliyi Departamenti (DOGE) genişmiqyaslı araşdırmalar apardı. Bu araşdırmalar nəticəsində adıçəkilən qrant proqramları da dayandırıldı. Bildirilir ki, həmin layihələr Dövlət Departamentində fəaliyyət göstərən Demokratiya, İnsan Haqları və Əmək Bürosunun (DRL) qərarı ilə maliyyələşdirilib.

**Yoxa çıxan qrantlar...**

Ermənistana verilən pulların dayandırılması təsadüfi sayıla bilməz - düzdür, digər başqa regionlarla bağlı da analoji addımlar nəzərə çarpmaqdadır, amma rəsmi İrəvanın verilən qrantlarla "davranışı" hər kəsə bəllidir. Onların "inklüziv cəmiyyət quruculuğu", "demokratik təsisatların inkişafı" və ya "müstəqil medianın inkişaf etdirilməsi" adı altında aldıqları pullar sonradan necə olurdusa, dolaşıb-dönüb silaha verilirdi. Bunu təsdiq edən onlarla fakt mövcuddur. Avropa Sülh Fondundan gələn pulların xərclənmə kriteriyaları hər şeyi ortaya qoyur. Başqa sözlə, Avropanın "maddi yardımları" İrəvandakı siyasi hakimiyyətə gəlib "çatan kimi" yoxa çıxır. Bunu Ermənistan ictimaiyyəti də təsdiqləyir. Hətta bir müddət öncə erməni mediası öz hakimiyyətindən bunun hesabatını belə tələb etmişdi. 2023-cü ilin sonlarında erməni mediasında yer alan yazılarda qeyd olunurdu ki, Nikol Paşinyan Avropa Parlamentindəki çıxışında Avropa Şurasının Ermənistana verdiyi vəsaitdən söz açmır. Ermənistanın cənub rayonlarının dayanıqlılığının artırılması proqramı çərçivəsində müxtəlif maliyyə mənbələrindən əldə olunmuş və həyata keçirilən 400 milyon avrodan artıq dəyərə malik layihələrin icrasına isə başlanılmayıb.

**"Pulsilmə əməliyyatı" və ya İrəvana "yardım"...**

Bu iddialar təbii qarşılanmalı idi - keçmiş ABŞ administrasiyası və Avropanın fərqli strukturlarının İrəvanla "qara pul" əməliyyatı barədə mətbuat dəfələrlə yazıb. Ermənistana "ianə", "yardım" və ya "qrant" adı altında verilən milyonlarla pulun məhz dövriyyəyə qazandırılması üçün yönləndirilməsi haqqında informasiyalar mövcuddur. İllərlə Ermənistana yardım adı altında davam etmiş "çirkli pulların yuyulması" prosesi fərqli məcrada inkişaf edib. Çünki ortada nəinki bir hesabat yoxdur, hətta rəsmi şəkildə bəyan edilən sahələrin inkişafına ayrılan pulların əks-sədası belə duyulmur. Başqa sözlə, Qərbin "maddi yardımları" İrəvandakı siyasi hakimiyyətə gəlib "çatan kimi" yoxa çıxırdı. Beləliklə, yeni administrasiyanın qərarı Ermənistan üçün böyük zərbədir - həm kənardan gələn milyonlarla ianədən oldular, həm də "çirkli əməliyyatın" faizi əllərindən çıxdı.

**Xartiya əhəmiyyətini itirib...**

Bu amil bir məqamı da ön plana çıxarır. ABŞ-ın yeni hökumətinin bu addımı İrəvanın başqa arzularını da "suya düşürür" - o baxımdan ki, Tramp administrasiyasının münasibəti bir daha təsdiqləyir ki, Bayden hökumətinin imzaladığı "strateji tərəfdaşlıq xartiyası" hər hansı bir əhəmiyyət daşımayacaq. Çünki sənəddə qeyd edilən başlıqların əksəriyyəti artıq gündəmdən düşüb - son qərar isə onu göstərir ki, ABŞ-ın yeni hakimiyyəti köhnə administrasiya kimi ölkə vətəndaşlarının vergilərindən formalaşan büdcə pullarını növbəti dövrdə "göyə sovurmaq" fikrində deyillər. Bu mənada həmin xartiyada da qeyd edildiyi kimi, "demokratiya", "ədalət və inklüzivliyin möhkəmləndirilməsi", "mədəni əməkdaşlıq", ekologiyanın qorunması kimi "pulsilmə əməliyyatları" üçün nəzərdə tutulan məsələlərə diqqət və qrant ayrılmayacaq. Beləliklə, aylarla boş təbliğatı aparılan "xartiya" icraya başlamamış tarixə qovuşur...

*SADİQ*

# İrəvanın "təlim" görüntüsü...

## İrəvan düşdüyü dalandan xilas yolu axtarır - sülhü imzalasa...

Bir neçə gün öncə İran və Ermənistan sərhəd bölgəsində birgə hərbi təlimlər keçirib. Anadolu Agentliyinin İRNA-ya istinadən yaydığı məlumata görə, təlimlər İran-Ermənistan sərhədindəki Nurduz bölgəsində baş tutub. İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Quru Qoşunlarının əməliyyat idarəsinin rəis müavini Vəliullah Maninin sözlərinə görə, təlimlərin əsas məqsədi sərhəd bölgələrində təhlükəsizliyi gücləndirməkdir. "İki ölkənin sərhəd bölgələri üçün xüsusi təhlükə yoxdur. Bu təlimlər döyüş hazırlığının saxlanılması, terrorizmlə mübarizə və davamlı sülhün təmin edilməsi məqsədi ilə keçirilir", - Mani yekunlaşdırıb.

**Ayrı-ayrı ölkələrin ərazisində "birgə təlim"?!**

Ermənistan saytlarının yaydığı məlumatda isə bildirilir ki, Ermənistan silahlı qüvvələri Ermənistan ərazisində, İran qüvvələri isə İran ərazisində təlimlər keçirib. Maraqlıdır ki, hər dövlətin öz ərazisində keçirdiyi təlimlər niyə "birgə təlim" kimi təqdim olunur?

Qeyd edək ki, bu məsələdə xüsusi canfəşanlığa məhz Ermənistan KİV-ində rast gəlinir. Demək olar ki, bu təlimlərə həsr olunan yazılar xüsusilə "hər iki ölkənin strateji maraqlarını əks etdirən məram və məqsəd"lərə həsr olunub. Bu kontekstdə xüsusilə "sərhəd təhlükəsizliyinin gücləndirilməsi və terrorizmlə mübarizə", "potensial müharibəyə hazırlıq", "regional və xarici oyunçulara siyasi siqnal", "regional balansın qorunması" kimi məsələlər qəsdən ön plana çəkilir. Bir sözlə, Ermənistan bu təlimləri regional "güc göstərisi" kimi təqdim etməyə çalışır.

**Ermənistan "od"la "su" arasında...**

Maraqlıdır ki, erməni ekspertlər bu "təlimlər" barədə danışarkən, bir məqamı özləri də etiraf edirlər - Azərbaycan regionun lideri qismində prosesə nəzarət edir. Başqa sözlə, bölgənin təhlükəsizlik arxitekturasının formalaşması məhz Bakının qurduğu əməkdaşlığın fonunda tənzimlənir. Siyasi ekspertlər ölkəmizin Türkiyə ilə müttəfiq, İsrail ilə dost, Rusiya və İran ilə normal əməkdaşlıq münasibətinə malik, eyni zamanda, qlobal birliyin mühüm aktorlarından biri olduğunu deyirlər. Bu nöqteyi-nəzərdən, Ermənistanın ayrı-ayrı ölkələrin öz ərazisində keçirdiyi təlimi "birgə təlim" kimi təqdim etməsi



başadüşüləndir.

Ermənistan son illərdə yalnız neqativ ştrixlərlə yadda qalıb. Məsələn, özünün KTMT-dən olan tərəfdaşları ilə münasibətlərini kəskinləşdirib və hətta qurumdakı iştirakını dondurub. "Qərbə söykəndiyini" düşünən İrəvanın bu arzuları isə Baydenlə birgə "məğlub" oldu. Nəinki uzaq perspektivi, hətta yaxın gələcəyi belə görmək iqtidarında olmayan rəsmi İrəvan özünü dalana salıb - nə "köhnə dostların" sırasına qayıtmağa üzü yoxdur, nə də yeni "ümidgahları" ona aralarına almırlar. Belə olan təqdirdə Ermənistan özünü gözə soxmaq üçün, yeni "çətir" tapmaq məqsədi ilə müxtəlif variantlara əl atır. Maraqlıdır ki, bu addımlar İrəvanı gülüş obyektinə çevirir - axı hamı onların nə etdiyini və nə istədiyini görür: ayrı-ayrı ərazilərdə keçirilən təlimin "birgə" sırınması kimi...

**Yalandan "güc" göstərməkdənsə, sülhü imzala!!!**

Ermənistan özünü "sığortalamaq" üçün bu kimi qeyri-standart yollara əl atmaqdansa, ən rahat addımı atmalıdır. Əgər İrəvan bölgədə müstəqil siyasi subyekt olaraq özünü təsdiq etmək niyyətindədirsə, bunun üçün ilk növbədə bölgənin təhlükəsizliyinin təmin edilməsi üçün real əməl ortaya qoymalıdır - Azərbaycan ilə sülhə imza atmalıdır. Sülhün imzalanması bölgədə yeni ab-hava, yeni situasiya yaradacaq - beləliklə, İrəvan da görüntü yaratmaq "məcburiyyətində" qalmayacaq. Axı hər kəs bilir ki, Ermənistanın keçirdiyi "təlimlər" sabun köpüyü effekti daşıyır. 44 günlük müharibə Ermənistanın bütün "hərbi gücünü" nümayiş etdirdi. Hətta Fransa və başqa ölkələrdən alınan silahlar belə onların köməyinə çatası deyil - necə ki, müharibə dövründə çatmamışdı. Bu kimi qeyri-adekvat yollarla bölgədə "güc göstərməyə" çalışan İrəvan sülh sənədini imzalayacağı təqdirdə bölgədə formalaşacaq yeni reallıqlardan bəhrələnəcək. Bu, hər kəs üçün faydalıdır...

*SADİQ*

# “Patriot” Ukraynanı xilas edəcək?

Ukraynaya yeni “Patriot” hava hücumundan müdafiə sistemləri veriləcək. Qeyd edək ki, NATO-nun Baş katibi Mark Rutte aprelin 15-də Kiyevə səfəri zamanı jurnalistlərə açıqlamasında bildirib ki, NATO Ukraynanı daha effektli silahlarla təmin etməyi planlaşdırır. O qeyd edib ki, Ukraynaya tezliklə əlavə olaraq “Patriot” sistemləri veriləcək. “NATO-nun Vaşinqtonda keçirilən sammitində dövlətlər Ukraynanı “Patriot” sistemləri ilə təchiz etməyi öhdələrinə götürüblər. Bu, bir az vaxt aparıb. Xoşbəxtlikdən, onların əksəriyyəti artıq çatdırılıb və ya yaxın vaxtlarda çatdırılacaq”, - deyə baş katib vurğulayıb. Prezident Volodimir Zelenski də Ukraynanın “Patriot” hava hücumundan müdafiə sistemlərinə ehtiyacı olduğunu bildirib - o, “CBS News” telekanalına müsahibəsində deyib ki, Ukrayna avropalı tərəfdaşların hesabına 15 milyard dollar dəyərində ABŞ-dan 10 ədəd “Patriot” zenit-raket kompleksini, eləcə də müxtəlif silahlar almaq niyyətindədir: “Bizim hava hücumundan müdafiə sistemlərimiz yoxdur. Bizə lazım olan yeni silahlarla bağlı paketi Birləşmiş Ştatlara təqdim etmişik. Bu paketi almağa hazırıq. Biz müvafiq paketləri bizimlə birlikdə maliyyələşdirməyə hazır olan avropalı tərəfdaşlarla müzakirə etmişik”, - deyə Zelenski əlavə edib.

## Ukrayna öz “Patriot”-nu yaradır?

Ukrayna KİV-nin məlumatına görə, rəsmi Kiyev strateji səviyyəli hava hücumundan müdafiə sistemi hazırlayır və bu layihəyə Avropa ölkələrindən maliyyə dəstəyi istəyir. XİN rəhbəri Andrey Sibiqa Avropa İttifaqının üzv ölkələrinin xarici işlər nazirlərinin iclasında çıxışı zamanı bəyan edib ki, Ukrayna artıq milli HHM sisteminin layihələndirilməsi üzərində işləyir və bu təşəbbüsün uğurla baş tutması üçün Avropa dövlətlərini bu proqrama investisiya yatırmağa çağırıb. A.Sibiqa əlavə edib ki, bu sistem nəinki Ukraynanın hava məkanının tam müdafiəsini təmin edəcək, hətta Avropanın kollektiv təhlükəsizliyinə töhfə verə bilər. Eyni zamanda Ukraynanın strateji sənaye naziri German Smetanin yerli KİV-ə brifinqdə qeyd edib ki, “Patriot” hava hücumundan müdafiə sisteminin analoqunu yaratmaq üçün öz layihələri üzərində işlənir. Onun sözlərinə görə, Ukraynanın müdafiə sektoru və hökuməti bu istiqamətdə xarici tərəfdaşlarla danışıqlar aparır. “Hazırda Ukrayna ərazisində “Patriot” hava hücumundan müdafiə raket sistemlərinin analoqu yoxdur, lakin bizim müdafiə sənayemizin müvafiq layihəsi var və biz onun üzərində işləyirik”, - deyə Smetanin bildirib.



## Ukraynaya bugünədək nə qədər silah verilib?

Aprelin 12-də Almaniyada “Ramştayn” formatında keçirilən görüşdə NATO ölkələri Ukraynaya “Patriot” raketləri, “Leopard” tankları da daxil olmaqla, daha böyük həcmdə yardım göstərmək barədə razılığa gəliblər. Qərb KİV-nin məlumatında qeyd olunur ki, Böyük Britaniya Ukraynaya 450 milyon funt sterlinq dəyərində yüz minlərlə dron və radiolokasiya sistemləri, Norveç 1 milyard dəyərində müxtəlif silahsursat və HHM sistemləri, Niderland və Litva 150 milyon və 20 milyon avro dəyərində HHM sistemlərinin gücləndirilməsi üçün texnikalar verməyi planlaşdırır. Bundan əlavə, Almaniya Ukraynaya 4 “IRIS-T” zenit kompleksi, kompleks üçün 300 ədəd raket, 30 “Patriot” raketi, 15 “Leopard” tankı, 25 “Marder” PDM və 100 mərmi, Estoniya isə 10 min artilleriya mərmisi verəcək.

Qeyd etmək lazımdır ki, NATO ölkələri son üç il ərzində Ukraynaya milyardlarla avro dəyərində hərbi dəstək göstərib. Bu müddət ərzində Britaniya və Fransa Ukraynanı “Starstreak” zenit raketləri, “Stormshadow” qanadlı raketləri, “Sezar” özüyeriyən artilleriya qurğuları və tank əleyhinə müxtəlif raketlərlə təmin edib. Niderland 2024-cü ilin aprelində Ukraynaya “Patriot” zenit-raket kompleksi üçün radar verib, həmçinin bugünədək 400 tank əleyhinə silah da göndərib. İtaliya isə Ukraynaya 2 ədəd “Samp-T” hava hücumundan müdafiə sistemi verib. Almaniyanın Ukraynaya hərbi yardımı daha çox diqqət cəlb edir. “Defence Express” nəşrinin araşdırmasına görə, son üç il ərzində Almaniya Ukrayna ordusunu 18 ədəd “Leopard” 2A6 tankı, 103 ədəd “Leopard” 1A5 tankı, 140 ədəd “Marder” piyadaların döyüş maşını və onun ehtiyat hissələrini, 66 ədəd adı açıqlanmayan zirehli personal daşıyıcısı, 54 ədəd M113, 78 ədəd tırtıllı BV 206 nəqliyyat vasitəsi, 153 ədəd digər zirehli texnika və 277 ədəd hərbi avtomobil ilə təmin edib. Bundan əlavə, 25 ədəd PzH 2000 özüyeriyən silah sistemi, 7 ədəd M109 özüyeriyən artilleriya vasitəsi, 2 ədəd “Zuzana” özüyeriyən silah, 3 ədəd M142 HIMARS raket sistemi, 5 ədəd MARS II raket sistemi, 358 min ədəd 155 mm-lik sursat, 15 min ədəd 120 mm minaatan Ukraynaya çatdırılıb. Almaniya ilə bərabər ABŞ da Ukraynaya xeyli miqdarda hərbi dəstək göstərib - bu dəstək 350 milyard dollar dəyərindədir. Norveç, İsveç, Litva, Estoniya, Latviya, Polşa, Çexiya və İspaniya da Ukraynaya kifayət qədər hərbi dəstək göstəriblər. Amerikalı hərbi ekspert Martin O’Donnell qeyd edib ki, Qərb Ukraynanın əks-hücum əməliyyatı üçün təxminən 600 növ silah verib.

## Ukrayna nə qədər ərazi itirib?

Ukraynanın “Deep-State” layihəsinin məlumatına görə, Rusiya 2022-ci ilin fevralından bəri Ukraynanın 68,5 min kvadrat kilometr ərazisini ələ keçirib. Bu da təxminən 11,35 faizə bərabərdir. Krım, Donetsk və Luqansk vilayətlərinin əvvəlki dövrlərdə ələ keçirilən hissələri də nəzərə alındıqda Rusiya Ukraynanın ümumilikdə 18,6 faiz ərazisinə nəzarət edir. ABŞ-ın Müharibə Araşdırmaları İnstitutunun məlumatında isə qeyd olunur ki, Rusiya ordusu 2024-cü ilin əvvəlindən Ukraynada təxminən 100 kvadratkilometr irəliləyə bilib. Ukrayna Prezidenti Volodimir Zelenski isə son Münhen Təhlükəsizlik Konfransında çıxışı zamanı Ukraynanın 2024-cü ildə 4 min kvadratkilometr ərazi itirdiyini deyib. ABŞ analitikləri belə qənaətə gəliblər ki, Rusiya 2014-cü ildən bəri Ukrayna ərazisinin təxminən 20 faizini - 120 min kvadratkilometrini öz nəzarəti altına alıb.

## Rusiya və Ukraynanın itkiləri

Ukrayna və Rusiyanın canlı itkilərinə gəlincə, bununla bağlı müxtəlif qeyri-rəsmi rəqəmlər səsləndirilir. “Economist” nəşri məlumat verir ki, Ukrayna bu müharibədə 60 - 100 min arası əsgər, Rusiya isə 140 mindən çox əsgər itirib. “Wall Street Journal” -ın araşdırmasında bildirilir ki, bu müharibədə 80000 Ukrayna, 200000 Rusiya hərbçisi həlak olub, hər iki tərəfin yaralanan hərbiçilərin sayı isə cəmi 800 mindir. Beynəlxalq “Statistics” agentliyinin son statistik rəqəmlərində müharibə başladıqdan bəri Ukraynada Rusiyanın hücumları nəticəsində 12910 mülki şəxsin həlak olduğu, 30 min 700 nəfərin isə yaralandığı qeyd olunur.

## “Patriot” sistemləri Ukrayna üçün faydalı olacaq?

Son zamanlar Rusiyanın Ukraynanın şəhərlərinə dron və raket hücumları intensivləşib. Hücumlar nəticəsində xeyli dinc sakin həlak olub. Sözsüz ki, belə bir halda Ukrayna Rusiyanın raket hücumlarını dəf etmək “Patriot”və ya oxşar hava hücumundan müdafiə sistemlərinə ehtiyacı var. Məsələ ilə bağlı politoloq Zaur Məmmədov qəzetimizə şərhində bildirib ki, bu sistemlər köməyini göstərə bilər, amma: “Təbii ki, “Patriot” sistemləri Ukraynanın köməyinə çata bilər. Bu sistemlər ilə Rusiyanın raket hücumlarının qarşısını almaq mümkündür. Amma Ukrayna təkcə müdafiə yox, həmçinin hücum xarakterli silahlara da ehtiyac duyur. Hesab edirəm ki, NATO Ukraynanın silahlanmasında hücum xarakterli silahlara üstünlük verməlidir. NATO Ukraynanı müəyyən miqdarda bu silahlar ilə təmin etsə də, ümumilikdə, silahların tədarükünü gecikdirir. Bu da ABŞ-ın indiki administrasiyasının mövqeyindən irəli gəlir. NATO bu məsələdə Vaşinqtonla məsləhətləşmək məcburiyyətindədir. Əgər Ağ Ev razılıq verərsə, NATO Ukrayna ordusunun əks-hücumunu gücləndirmək üçün Kiyevi daha effektli silahlarla təmin edəcək”. Politoloq əlavə edib ki, Rusiya-Ukrayna cəbhəsində vəziyyət ağır olaraq qalır: “Ukrayna daha çox silahlarla təmin oluna bilər, ancaq bu müharibənin taleyi Rusiya-ABŞ danışıqlarından asılıdır. Yəni bu müharibənin sona çatmasında Putin və Trampın ortaq məxrəcə gəlməsi daha çox mühüm rol oynayacaq. Rusiya heç bir zaman nəzarətə götürdüyü ərazilərdən geri çəkilməyəcək və Ukraynanın cənub-şərq ərazilərini özünü birləşdirmək niyyətindədir. Moskva ABŞ-la danışıqlar masasında öz şərtlərini diktə etməyə davam edəcək. ABŞ da Ukraynanı güzəştə getməyi məcbur edir. Hazırda görünən budur ki, müharibə yaxın aylarda da davam edəcək. Çünki hər iki tərəf hədəflərinə çatmaq üçün mübarizəni şiddətləndirir”.

***Yunis ABDULLAYEV***

# Harvard Universitetinin taleyi necə olacaq?

Dünyanın supergüc dövləti olan Amerika Birləşmiş Ştatlarında administrasiya dəyişikliyindən sonra ölkə həyatında yeni bir dönəm başlayıb. Prezident Donald Trampın aldığı qərarlar bir sıra hallarda həm dünya, həm də ABŞ-ın özü üçün, necə deyərlər, sürpriz xarakteri daşıyır. Yeni Prezident həmçinin ölkədə dövlət idarəçiliyini təkmilləşdirmək, maliyyə intizamını gücləndirmək, vəsaitlərin izafi xərclənməsinin qarşısını almaq kursunu həyata keçirir. Bu məqsədlə qısa müddətdə dövlət büdcəsindən maliyyələşən bir sıra qurumların fəaliyyəti ya tamam dayandırılıb, ya da əhəmiyyətli dərəcədə məhdudlaşdırılıb, həmçinin müxtəlif qurumlarda xərclərə qənaət məqsədilə çoxsaylı ixtisarlar aparılıb.

Belə görünür ki, indi növbə dünyaca məşhur Harvard Universitetinə də çatıb. Prezident Donald Tramp çərşənbə axşamı, aprelin 15-də Harvard Universitetini vergidən azadetmə statusundan məhrum etməklə hədələyib.

## ABŞ-ın ən qədim ali təhsil ocağı

Harvard Universiteti ABŞ-ın ən qədim ali təhsil ocağıdır. Ali məktəbin kampusu Massaçusets ştatının Kembric şəhərində yerləşir və 154 hektarlıq ərazini əhatə edir. Universitet müstəmləkəçilərin Amerika qitəsinə gəlişindən 16 il sonra - 8 sentyabr 1636-cı ildə yaradılıb. Təhsil müəssisəsinin tarixi Massaçusets vilayəti Ali Məhkəməsinin qərarı ilə kollecin yaradılmasından başlayır.

Kollec ingilis missioneri və xeyriyyəçisi Con Harvardın şərəfinə onun adı ilə adlandırılıb. Övladları olmayan Harvard 1638-ci ildə ölümündən sonra öz mülkünün yarısını (779 funt) və kitabxanasının 400 kitabını yeni yaranmış təhsil müəssisəsinə vəsiyyət edib. 1639-cu ildə kollec minnətdarlıq hissi ilə Harvardın adı ilə adlandırılıb. Sonradan bu kitabxana qitənin ikinci kütləvi kitabxanasına çevrilib.

XIX əsrin ilk rübündə kollecin universitetə çevrilməsi prosesi baş verir. Bu zamana qədər orada İncil, müxtəlif dillər və riyaziyyat öyrədilirdi. Kollecin universitet statusu alması burada tibb (1810) və hüquq (1817) elmlərinin tədris edilməsi ilə bağlıdır.

Harvardın ilk buraxılışı 9 nəfər olub. Hazırda universitetin bir neçə muzeyi var. Universitetin nəinki botanika bağı, hətta özəl meşə massivi də mövcuddur və bioloqlar burada öz tədqiqatlarını aparırlar.

## Universitetdən üzr tələbi

Ağ Evin mətbuat katibi Kerolayn Levitt jurnalistlərə deyib ki, Tramp, özünün təbiri ilə, universitetin kampusunda “yəhudiəsilli amerikalı tələbələrə qarşı törədilən antisemitizm” üçün Harvard Universitetinin üzr istəməsini tələb edir.



O, Harvard və digər universitetləri federal maliyyə alanlara irqi və ya milli mənşəyə görə ayrı-seçkilik etməyi qadağan edən Mülki Hüquqlar Aktının VI maddəsini pozmaqda günahlandırıb. Bu maddəyə əsasən, federal maliyyələşdirmə yalnız uzun araşdırma və dinləmələrdən, eləcə də Konqresə bildirildikdən sonra 30 gün ərzində dayandırıla bilər ki, bu da Kolumbiya və ya Harvardda baş verməyib.

Bəzi professorlar və tələbələr etirazların ədalətsiz olaraq antisemitizmlə izah olunduğunu, onlardan akademik azadlığa Konstitusiyaya zidd hücum üçün bəhanə kimi istifadə edildiyini bildiriblər.

Harvard Universitetinin prezidenti Alan Qarber bazar ertəsi yazdığı məktubda Tramp administrasiyasının Massaçusets Universitetinə qarşı tələblərinin, o cümlədən onun tələbələri və müəllimləri arasında “perspektiv müxtəlifliyini” təmin etmək və müxtəliflik, bərabərlik və inklüziv proqramlara son qoymaq üçün misli görünməmiş “qanundan ayrılmış güc fərziyyələri” olduğunu, söz azadlığı və Konstitusiya qanunlarını pozduğunu bəyan edib. Qarberin məktubundan bir neçə saat sonra Tramp administrasiyasının Antisemitizm üzrə Birgə İşçi Qrupu Harvard Universitetinə ayrılan 2 milyard dollardan çox müqavilə və qrantların dondurulduğunu bildirib. Administrasiya hansı qrantların və müqavilələrin kəsilməsi ilə bağlı suallara cavab verməyib, Harvard Universiteti isə vəziyyəti şərh etməyib. Beləliklə, sual yaranır: Dünyaca məşhur olan Harvard Universitetinin taleyi necə olacaq?

## Harvard çoxsaylı ittihamlarla üz-üzə

Bu arada Ağ Evin Harvarda qəzəbinin motivləri bəlli olub. “Reuters” xəbər verir ki, Kolumbiya Universitetindən başlayaraq, Tramp administrasiyası ölkədəki universitetlərin kampuslarında keçən il baş verən Fələstin tərəfdarı olan tələbələrin etiraz hərəkatını idarə etdiklərinə görə onları tənqid edib.

Tramp etirazları anti-Amerika və antisemitizm halları adlandırıb, universitetləri marksizmi və “radikal sol” ideologiyanı təbliğ etməkdə ittiham edib və onun administrasiyasının tələbləri ilə razılaşmayan universitetlərə federal qrantları və müqavilələri kəsəcəyini vəd edib.

Tramp çərşənbə axşamı günü sosial media paylaşımında bildirib ki, Harvard Universitetinin prezidenti “siyasi, ideoloji, terrorizmdən ilhamlanan və dəstəklənən xəstəliyi” təbliğ etməyə davam edərsə, o, vergi statusunu ləğv etməklə bağlı düşünməyə məcbur olacaq.

ABŞ Vergi Məcəlləsinə əsasən, əksər universitetlər federal gəlir vergisindən azaddır, çünki onlar ictimai təhsil məqsədləri üçün fəaliyyət göstərirlər.

***MÜBARİZ***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Milli-mənəvi dəyərlərimizə qayğı...

## Ölkəmizdə dinlərarası harmoniya qorunur!

**Müxtəlif konfessiyaların nümayəndələrinin yaşadığı ölkəmizdə dini etiqad azadlığının təmin olunması üçün əlverişli şərait var. Bəşəriyyətin ümumi irsi hesab olunan dini abidələrin bərpası istiqamətində həyata keçirilən layihələr xalqımızın multikulturalizm ənənələrinə ehtiramını nümayiş etdirir. Belə ki, milli-mənəvi dəyərlərimizin, tolerantlıq ənənələrimizin təbliği və təşviqi, zəngin mədəni irsimizin beynəlxalq aləmdə tanıdılması istiqamətində uğurlu siyasət davam etdirilir. Dövlət-din münasibətləri sağlam təməllər üzərində qurulub, bütün dini abidələr dövlət tərəfindən qorunur, ölkəmizdəki məscid və ziyarətgahlara da xüsusi dövlət qayğısı var.**

**Aprelin 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Bakının Xəzər rayonundakı Mir Mövsüm Ağa, Pir Həsən ziyarətgah kompleksləri və Suraxanı rayonunun Bülbülə qəsəbəsi “Məhəmməd Sadiq” ziyarətgahında olub.**

**Ziyarətgahlarda yaradılan şəraitlə tanış olan Dini Komitənin sədri dövlət tərəfindən milli-mənəvi dəyərlərin qorunması, dini icmaların fəaliyyətinin dəstəklənməsi istiqamətində görülən işlər barəsində danışıb.**

**Onun sözlərinə görə, Azərbaycanda heç bir fərq qoyulmadan müxtəlif dini icmalara, onlara məxsus ibadət yerlərinə diqqət və qayğı göstərilir, Prezident İlham Əliyev tərəfindən hər il dini qurumlara maliyyə yardımı ayrılır.**

### Uğurlu layihələr həyata keçirilir

R.Məmmədov ölkədəki multikulturalizm və tolerantlıq ənənələrinin milli həmrəyliyin formalaşmasında mühüm rol oynadığını bildirib. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini vurğulayan komitə sədrinin sözlərinə görə, fondun təşəbbüsü ilə dini ibadət yerlərinin, ziyarətgahların bərpası və qorunması istiqamətində bir çox uğurlu layihələr həyata keçirilir.

Görüşlərdə iştirak edən din xadimləri Azərbaycanda dini etiqad azadlığının təmin olunması üçün hər cür şəraitin yaradıldığını, məscid, kilsə, sinaqoq, ziyarətgahların təmiri və bərpasının diqqətdə saxlanıldığını vurğulayıblar. Onlar dini dəyərlərin qorunması və inkişafına göstərilən diqqətə görə dövlət rəhbərliyinə minnətdar olduqlarını bildiriblər.



### Azərbaycanda nə qədər dini icma fəaliyyət göstərir?

Ramin Məmmədov Bakıdakı “Xabad-Or-Avner” Təhsil Mərkəzini ziyarət edib. Komitə sədri bildirib ki, Azərbaycanda həm müsəlman, həm də qeyri-müsəlman icmaları da daxil olmaqla 995 dini icma fəaliyyət göstərir.

Mərkəzdə görüş zamanı R.Məmmədov Azərbaycanda dövlət tərəfindən dinlərarası harmoniyanın qorunub-saxlanılmasına göstərilən diqqətdən bəhs edib. O, bildirib ki, Azərbaycan uzun illər ərzində dini müxtəliflik və dinlərarası sülh məsələlərinə münasibətdə dialoqa, qarşılıqlı hörmətə əsaslanan unikal yanaşma nümayiş etdirib: “Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dini etiqad azadlığının təmin edilməsinə və dini icmaların fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına xüsusi önəm verilir”.

O, qeyd edib ki, ölkədə dini müxtəliflik nəinki qorunub saxlanılır, həm də dövlət tərəfindən dialoq və tərəfdaşlıq yolu ilə fəal şəkildə dəstəklənir.

### Müxtəlif konfessiyaların fəaliyyətinə göstərilən diqqət !

Azərbaycandakı aşkenazi yəhudilərinin baş ravvini Şneor Seqal təhsil mərkəzinin “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində Heydər Əliyev Fondu və “Or-Avner” Beynəlxalq Fondu tərəfindən inşa edilməsinin müxtəlif konfessiyaların fəaliyyətinə göstərilən diqqət və dəstəyin təzahürü olduğunu bildirib. O, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın məktəbin açılışında iştirak etmələrini yəhudilərin milli-mədəni irsinə qayğının bariz nümunələrindən biri kimi qiymətləndirdiklərini vurğulayıb.

Qeyd edək ki, 450 yerlik etno-mədəni komponentli mərkəzin digər təhsil müəssisələrindən fərqi yəhudi mədəniyyəti əsaslarını tədris etməsidir. Heydər Əliyev 2003-cü ildə binanın inşası ilə bağlı, Prezident İlham Əliyev isə 2004-cü ilin dekabrında yeni kompleksin tikintisi üçün torpaq sahəsinin ayrılmasına dair göstəriş veriblər. 2007-ci ildə Heydər Əliyev Fondu və “Or-Avner” Beynəlxalq Fondunun arasında təhsil, səhiyyə, mədəniyyət, sosial təyinatlı obyektlərin tikintisi, yenidən qurulması, maddi təchizatı sahəsində əməkdaşlığı nəzərdə tutan saziş imzalanıb. 2010-cu ildə “Xabad-Or-Avner” təhsil mərkəzinin açılış mərasimi keçirilib.

*Yeganə*


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**


# “Kral” xəstəliyi...

## Azərbaycanda nə qədər hemofiliya xəstəsi var?

**Hazırda dünyada, eləcə də ölkəmizdə geniş yayılmış irsi qan xəstəliyindən biri hemofiliyadır. İnsan qanında laxtalanma faktorlarının çatışmazlığı nəticəsində əmələ gələn bu xəstəlik irsən ötürülür. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə, milli və irqi mənsubiyyətindən asılı olmayaraq, təxminən yeni doğulan 5 min oğlan uşağından biri hemofiliya A ilə doğulur. Qanda zülalın miqdarı nə qədər azdırsa, xəstəlik o qədər şiddətlidir.**

**Hemofiliya B isə faktor 9 zülalın əskikliyindən qaynaqlanır. Xəstəliyin kliniki əlamətləri hemofiliya A-dan seçilmir. Hemofiliya müxtəlif qanaxma və qansızmalarla müşayiət edilir. Hemofiliyaya “Viktoriya” və ya “kral” xəstəliyi də deyilir, çünki xəstəliyin ən məşhur daşıyıcısı Britaniya kraliçası Viktoriya idi. Onun vasitəsilə də övladlarına genetik olaraq ötürülüb.**

### Xəstələrin sayı 400 mindən çoxdur

Aprelin 17-si Ümumdünya Hemofiliya Günü kimi qeyd olunur. Bu tarixin seçilməsi Dünya Hemofiliya Federasiyasını yaratmış Frenk Şnaybelin doğum günü ilə əlaqədardır. Aparılan bəzi hesablamalara görə, hazırda dünyada hemofiliyalı xəstələrin sayı 400 mindən çoxdur. Son vaxtlara qədər çox nadir hallarda bu xəstəlikdən əziyyət çəkən uşaqlara yetkin yaşına qədər yaşamaq nəsib olurdu. Hazırda müalicə edilmədən yaşayan hemofiliya xəstələrinin orta ömrü təxminən 30 il təşkil edir, 12 yaşında isə əlil olaraq əsa və ya təkərli arabalarla hərəkət edirlər.



### Qohum evliliklərinin qarşısı alınmalıdır!

A.Hüseynov hemofiliya xəstəliyində rol oynayan amilləri sadalayıb: “Bu xəstəlikdə qohum nikahları daha çox üstünlük təşkil edir. Təbii ki, dövlət qurumları lazım olan addımlar atırlar. Ancaq qohum evliliklərinin qarşısı alınmalıdır. Nəinki hemofiliya, eyni zamanda, qan laxtalanması olan digər xəstəliklər və ümumilikdə, irsi genetik xəstəliklərin yaranmasına səbəb olan amillərin qarşısı alınmalıdır ki, sağlam uşaqlar dünyaya gəlsin. Bu gün dünya hemofiliya günüdür və bu gün ölkəmizdə xüsusi tədbirlər keçirilir. Nəinki Azərbaycanda, dünyanın 147 ölkəsində hemofiliya günü qeyd olunur”.

### Azərbaycanda vəziyyət necədir?

Hemofiliya Xəstələrinin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, hazırda Azərbaycanda 1700-dən çox hemofiliyalı xəstələr qeydiyyatdadır: “2006-cı ildən indiyə qədər ölkəmizdə hemofiliyalı xəstələr dövlətin qayğısı nəticəsində dərman preparatları ilə təmin olunurlar. 2005-ci ildə Dövlət Proqramı qəbul olunandan və 2006-cı ildən dərman preparatları gətiriləndən sonra bu xəstəlikdən ölüm halları minimuma enib. Lakin beynəlxalq statistikaya görə, Azərbaycanda 1700 pasiyentin olması çoxdur. Çünki hər 10 min kişiyə bir nəfər hemofiliyalı xəstə düşürsə, maksimum 1000 nəfər xəstənin olması daha məqsədəuyğun olardı”.

### Bunlar hemofiliyalı xəstələrə qadağandır...

A.Hüseynov qeyd edib ki, hemofiliyalı xəstələri üçün bəzi qadağalar var: “Məsələn, hemofiliyalı xəstələrə tərkibində qan duruldan maddələr olan dərman preparatlarının qəbulu və əzələdaxili inyeksiyalar qadağandır. Bundan başqa, ağır fiziki yüklənmə, bəzi idman növləri, məsələn, futbol, basketbol, güləş, boks qadağandır. Ağır formalı hemofiliyalı xəstələrin orta təhsilini ev şəraitində almaqları məqsədəuyğundur. Əgər xəstə travma alıbsa, dərhal travma yerinə buz qoyulmalı, faktor konsentratı vena daxilinə yeridilməlidir. Azyaşlı uşaqları itiuclu, sərt oyuncaqlardan uzaq tutulmalı, uşaq oynayan məkan yumşaq döşənilməlidir”.

*Yeganə BAYRAMOVA*

## İdman

### Bakıda keçiriləcək minifutbol üzrə dünya çempionatında 7 ölkənin yığması debüt edəcək

Bu il Azərbaycanda təşkil olunacaq minifutbol üzrə dünya çempionatında bəzi ölkələrin yığması debüt edəcək.




AZƏRTAC Dünya Minifutbol Federasiyasının rəsmi saytına istinadən xəbər verir ki, 32 milli komandadan 7-si mundialda ilk dəfə mübarizə aparacaq. Bunlar Çad, İsrail, Türkiyə, Polşa, Sloveniya, Özbəkistan və Mavritaniya komandalarıdır.

Mavritaniya ilə Sloveniya yığmaları Azərbaycan millisinin yer aldığı A qrupunda qərarlaşıb.

Qeyd edək ki, minifutbol üzrə dünya çempionatı mayın 21-dən iyunun 1-dək Bakıda keçiriləcək. Oyunlar Milli Gimnastika Arenasında təşkil olunacaq. Turnirin son qalibi Rumıniya komandasıdır.

### UEFA İnkişaf Turniri: Azərbaycan millisi Gürcüstana qalib gəlib

17 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası Moldovanın paytaxtı Kişineuda təşkil olunan UEFA İnkişaf Turnirində ikinci oyununu keçirib.

AZƏRTAC xəbər verir ki, Aqil Nəbiyevin başçılıq etdiyi yığma Gürcüstanın müvafiq yaş qrupundan ibarət komandası ilə qarşılaşıb. Moldova Futbol Federasiyasının Texniki Mərkəzində keçirilən görüş millimizin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. U-17-nin heyətində qələbə qolunu 10-cu dəqiqədə Pünhan Kərimov vurub.



Qeyd edək ki, Azərbaycan seçməsi turnir çərçivəsində son matçını aprelin 19-da, Bakı vaxtı ilə saat 12:00-da Estoniya yığmasına qarşı keçirəcək.

### “Azərbaycan Şahmat Turu”nun tanıtım çarxı təqdim olunub

İlk dəfə olaraq bütün ölkəni əhatə edəcək “Azərbaycan Şahmat Turu” - (“Chess Tour Azerbaijan”) layihəsinin tanıtım çarxı təqdim olunub.

Azərbaycan Şahmat Federasiyasından (AŞF) AZƏRTAC-a verilən məlumata görə, videoçarxda yarışların keçiriləcəyi şəhərlərdən görüntülər yer alıb.

Bu il həyata keçiriləcək layihə çərçivəsində ölkədə şahmat üzrə 8 beynəlxalq yarış təşkil olunacaq.

Şahmat turu paytaxt Bakıdan başlayacaq. Aprelin 28-dən etibarən “Baku Open” beynəlxalq şahmat festivalına start veriləcək. 18-25 iyun tarixlərində “Sheki Open”, 26 iyun-3 iyulda “Shamakhı Open”, 6-13 iyulda “Lankaran Open”, 15-22 iyulda “Guba Open”, 11-18 noyabrda isə “Ganca Open” və 19-26 noyabrda “Shirvan Open” keçiriləcək.

“Azərbaycan Şahmat Turu” çərçivəsində həm də “Vüqar Həşimov Open” turniri baş tutacaq.

Qeyd edək ki, bütün turnirlərdə yerli şahmatçılarla yanaşı, həm də xarici iştirakçıların o cümlədən beynəlxalq qrossmeysterlərin iştirakı planlaşdırılır.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4921**
**Sifariş: 754**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova